# Ərdoğan qərarını verdi

O, prezident seçkilərində namizədliyini elan edib



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 2023-cü ildə keçiriləcək prezident seçkilərinə namizədliyini irəli sürüb.**

Bu barədə o, İzmirdə hakim Ədalət və İnkişaf Partiyasının (AKP) İzmir vilayət məclisində çıxışı zamanı elan edib.

R.T.Ərdoğan öz çıxışında seçkilərin vaxtını da açıqlayıb.

"Seçkilər gələn il iyun ayının ortalarında keçiriləcək. "Cümhur İttifaqı"ndan namizəd də Tayyib Ərdoğandır", - deyə Türkiyə Prezidenti bildirib.

# Ərazimizə keçən erməni qarşı tərəfə təhvil verildi



**Azaraq Azərbaycan hərbçilərinin nəzarətində olan əraziyə keçən erməni əsilli mülki şəxs qarşı tərəfə qaytarılıb.**

Bu barədə Azərbaycanlı Əsir və Girovlara bağlı Məlumat Mərkəzinin koordinatoru Əhməd Şahidov deyib.

*Onun sözlərinə görə, 69 yaşlı şəxs bu gün saat 12:00 radələrinə erməni tərəfinə təhvil verilib.*



# İyunun 14-ü "Son zəng" keçiriləcək

Tədbirlər hər bir ümumi təhsil müəssisəsinin həyətyanı sahəsində təşkil olunacaq

**Ümumi təhsil müəssisələrində "Son zəng" tədbiri iyunun 14-də keçiriləcək.**

Təhsil Nazirliyindən verilən xəbərə görə, "Son zəng" tədbiri hər bir ümumi təhsil müəssisəsinin həyətyanı sahəsində, həyətyanı sahəsi olmayan ümumi təhsil müəssisələrinin idman və ya akt zallarında təşkil olunacaq.

"Son zəng" tədbirində valideyn komitələri, valideyn-müəllim assosiasiyaları və ictimaiyyətin nümayəndələri iştirak edə bilər.

"Son zəng" müddətində şagirdlərin təhlükəsizliyinin təmin olunması istiqamətində zəruri tədbirlər görüləcək.

*Qeyd olunan məsələlər Təhsil Nazirliyinin müvafiq əmrində vurğulanıb.*


❐ № 101 (5623), 2022-ci il

Qiymәti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 10 iyun 2022-ci il (cümə)






## Hikmət Hacıyev BMT Baş Assambleyasının sədri ilə görüşüb

Görüşdə Azərbaycanın daim çoxtərəfli diplomatiyanı dəstəklədiyi vurğulanıb

**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyası Xarici əlaqələr şöbəsinin müdiri Hikmət Hacıyev BMT Baş Assambleyasının sədri Abdulla Şahidlə görüşüb.**

Görüşdə Azərbaycanın daim çoxtərəfli diplomatiyanı dəstəklədiyi vurğulanıb və Qoşulmama Hərəkatının sədri kimi bu istiqamətdə gördüyü işlər müzakirə edilib.

*Xatırladaq ki, BMT-nin protokol qaydalarına əsasən rəsmi görüşlərdə BMT-nin və bu təşkilatın rəhbər vəzifəli nümayəndəsinin təmsil etdiyi dövlətin bayraqları qoyulur.*

## Kreml səhvini anladı

Rusiya XİN Sergey Lavrovun Fərrux kəndi ilə bağlı dediklərinə düzəliş edib



**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi saytında Sergey Lavrovun İrəvanda erməni həmkarı Ararat Mirzoyanla birgə mətbuat konfransında Xocalının Fərrux kəndi ətrafındakı vəziyyətlə bağlı səsləndirdiyi fikirlərə düzəliş edilib.**

**Lavrovun Fərrux kəndi ilə bağlı ünvanlanan suala cavabı bu cür verilib:**

"Qarabağda vəziyyətin deeskalasiyası baxımından müəyyən nəticələr var. Ümid edirik ki, Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası prosesinin başlanması Bakı ilə İrəvan arasında etimadın artmasına və Rusiya sülhməramlı kontingentinin məsuliyyət zonasında Fərrux kimi insidentlərin qarşısını almağa kömək edəcək".

(səh.2)

# "ABŞ bütün ölkələrin ərazi bütövlüyünü dəstəkləyir"

Li Litzenberger: "Əgər bu regiondakı ölkələrin müstəqilliyinə, ərazi bütövlüyünə təhdid olarsa, ABŞ lazımi addımlar atacaq"



**"Azərbaycanda tarixi hadisələrə şahidlik etdim". Bu sözləri Azərbaycandakı diplomatik missiyasını başa vuran Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri Li Litzenberger brifinqdə bildirib. Səfir deyib ki, Azərbaycanda çalışmaqdan qürur duyub:**

"Əminəm ki, bizim münasibətlərimiz əmin əllərdədir. ABŞ-ın Azərbaycanla ikitərəfli əlaqələri ən yüksək səviyyədədir. Vaşinqton bu təmasları davam etdirəcək, gücləndirəcək. Həm davamlı sülhün əldə olunması, həm də yerdə qalan digər məsələlərin həlli üçün tərəflər əməkdaşlıq etməyə davam edəcək".

ABŞ-ın Azərbaycandakı səfiri Li Litzenberger bildirib ki, Azərbaycan ərazilərinin minalarla çirkləndirilməsi məsələsi ciddi problemdir: "Əgər ərazilər minalardan təmizlənməsə, məcburi köçkünlər ora qayıda bilməyəcəklər". Onun sözlərinə görə, bir sıra ABŞ şirkəti işğaldan azad edilmiş ərazilərin yenidən qurulması prosesində iştirak edir: "ABŞ-ın bu sahədə böyük təcrübəsi var, biz ən yaxşı texnikaları təqdim edə bilərik.

(səh.3)

# ABŞ səfiri açıq mesaj verdi

Rusiyanın təhlükəli planı işləsə Amerika Azərbaycanı tək qoymayacaq



**"Daha əvvəl də, bir neçə dəfə bildirmişdik ki, Rusiyanın növbəti hədəfi Azərbaycan olacaq. Tacikistandakı vəliəhd əməliyyatı ilə mərkəzi Asiya artıq tam nəzarətdədir. Putin Sovet İttifaqını bərpa etmək üçün Orta Asiyada heç bir maneəyə rast gəlmir".**

Bu barədə "Şərq"ə siyasi şərhçi Turab Rzayev bildirib. Analitik qeyd edib ki, Şərqi Avropa ərazisində isə Belarus artıq ram edilib. Ukrayna işğal olunur. Moldovanın taleyi isə Ukrayna müharibəsinin gedişatından asılıdır. Qorxuya düşən Sandu hökuməti hər ehtimal keçmiş prezident Rusiyameyilli İqor Dodonu həbs edib...

(səh.4)



## Akar: "Türkiyə Ordusu Azərbaycanın yanındadır"

**Türkiyə Ordusu tarixi və mədəni məsuliyyəti nəzərə alaraq, dost və qardaş ölkələrin, xüsusilə Azərbaycan və Liviyanın haqlı mübarizələrində onların yanındadır.**

APA-nın İstanbul müxbiri xəbər verir ki, bu barədə Türkiyənin milli müdafiə naziri Hulusi Akar "Efes-2022" beynəlxalq təlimlər çərçivəsində çıxışı zamanı deyib.

O qeyd edib ki, Türkiyə Silahlı Qüvvələri ölkə sərhədlərinin təhlükəsizliyini təmin edərək, başda FETÖ, PKK/YPG, İŞİD kimi terror təşkilatları ilə daxildə və xaricində mübarizə aparır, bununla Türkiyənin maraq və mənafelərini qətiyyətlə qoruyur.

## Yoluxma sayı artdı

Vəfat edən olmayıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 15 yeni yoluxma faktı qeydə alınıb, 7 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 792 847 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 783 070 nəfər müalicə olunaraq sağalıb, 9 714 nəfər vəfat edib, aktiv xəstə sayı 63 nəfərdir.

*Ölkədə son sutka ərzində 1 988, hazırkı dövrədək isə 6 916 588 test aparılıb.*

## Neftçalada azyaşlı uşaq kollektorda boğulub



**Neftçalada azyaşlı uşaq kollektorda boğulub.**

"Report"un Aran bürosunun məlumatına görə, hadisə Şəfəq kəndində qeydə alınıb.

Belə ki, kənd sakini, 2010-cu il təvəllüdlü İbadlı Sahil Elçin oğlu kollektora düşərək boğulub.

Faktla bağlı araşdırma aparılır.

## Əhməd Cavad hamıdan çox təbliğ olunmalıdır

Çünki o, heç zaman milli mövqeyindən dönməyib



(səh.4)

## Ölkə-ölkə gəzib taxıl toxumu axtarmaq mənasızdır

Azərbaycanın öz iqliminə uyğun sortlar yetişdirilməlidir



(səh.6)



## “Zarafat etmirəm"

### Ərdoğan: “Yunanıstanı adaları silahlandırmaqdan çəkinməyə çağırıram”

**Yunanıstanı Egey dənizindəki adaları silahlandırmaqdan əl çəkməyə və beynəlxalq razılaşmalara əməl etməyə dəvət edirəm.**

APA xəbər verir ki, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ”Efes-2022” beynəlxalq təlimlər çərçivəsində çıxışı zaman deyib.

O qeyd edib ki, Yunanıstanın bu adaları silahlandırması və üçüncü ölkələrin bundan istifadə etməsi fəlakətlə nəticələnə bilər.

”Zarafat etmirəm, ciddiyəm. Millətimiz qətiyyətlidir”, - Türkiyə lideri vurğulayıb.

Ərdoğan bildirib ki, Türkiyə heç kimin haqq və hüququnu tapdalamaz və eyni zamanda, öz haqlarının tapdanmasına imkan verməz.

## Qazilər Qarabağda işlə təmin olunacaq




**“2021-ci ildən şəhid ailə üzvlərinin kvota ilə işə götürülməsi prosesinə başlanılıb. Bu gün ölkə üzrə kvotanın sayı 66 mindən artıqdır. Kvotanın 80 minə çatdırılması planlaşdırılır”.**

”Report” xəbər verir ki, bunu Dövlət Məşğulluq Agentliyinin sədri Mustafa Abbasbəyli Vətən müharibəsi qazilərinin məşğulluğunun təmin edilməsi, onlara göstərilən sosial dəstəklə bağlı keçirdiyi mətbuat konfransında deyib.

Sədr bildirib ki, bu ilin ilk 4 ayı ərzində 2500 nəfərə işsizlikdən sığorta təyinatı olub: ”Bu göstəricinin 10 minin üzərinə çatdırılması nəzərdə tutulub. Böyük qayıdış çərçivəsində azad olunan ərazilərdə işlə təminat məsələsinə baxılır. Qazilərin orada işə cəlbinə xüsusi önəm veriləcək. Qarabağda iş platforması hazırlanır”.

# Kreml səhvini anladı

### Rusiya XİN Sergey Lavrovun Fərrux kəndi ilə bağlı dediklərinə düzəliş edib

**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi saytında Sergey Lavrovun İrəvanda erməni həmkarı Ararat Mirzoyanla birgə mətbuat konfransında Xocalının Fərrux kəndi ətrafındakı vəziyyətlə bağlı səsləndirdiyi fikirlərə düzəliş edilib.**

**“Report” xəbər verir ki, Lavrovun Fərrux kəndi ilə bağlı ünvanlanan suala cavabı bu cür verilib:**



”Qarabağda vəziyyətin deeskalasiyası baxımından müəyyən nəticələr var. Ümid edirik ki, Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası prosesinin başlanması Bakı ilə İrəvan arasında etimadın artmasına və Rusiya sülhməramlı kontingentinin məsuliyyət zonasında Fərrux kimi insidentlərin qarşısını almağa kömək edəcək”.

Bundan əvvəl Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Rusiya xarici işlər naziri Sergey Lavrovun Ermənistana səfəri çərçivəsində keçirilən mətbuat konfransında Xocalı rayonunun Fərrux kəndi ilə əlaqəli vəziyyətin Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası kontekstində nəzərdən keçiriləcəyinə dair fikrini şərh edərkən bildirib ki, Azərbaycan və Ermənistan tərəfindən təsis edilmiş delimitasiya komissiyalarının fəaliyyəti əvvəlcədən nəzərdə tutulduğu kimi məhz iki ölkənin dövlət sərhədinin delimitasiyası məqsədini güdür.

”Bu proses çərçivəsində Azərbaycan-Ermənistan dövlət sərhədindən kənar hər hansı bir məsələyə, o cümlədən Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərlə bağlı məsələyə baxılması nəzərdə tutulmur”, - XİN sözçüsü vurğulayıb.

*Xatırladaq ki, Rusiya XİN başçısı Sergey Lavrov ermənistanlı həmkarı Ararat Mirzoyanla birgə brifinqdə Fərrux kəndi ilə bağlı sualı cavablandırarkən bu məsələnin delimitasiya prosesi çərçivəsində həll edilməli olduğunu iddia edib.*



## İlham Əliyev İran Prezidentinə başsağlığı verib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran Prezidenti İbrahim Rəisiyə başsağlığı ünvanlayıb.**

*Başsağlığında deyilir:*

”Hörmətli cənab Prezident,

Məşhəd-Yəzd istiqamətində hərəkət edən sərnişin qatarının qəzaya uğraması nəticəsində insanların həlak olması və xəsarət alması barədə xəbər bizi son dərəcə kədərləndirdi.

Bu ağır faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İran xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram”.

## Zemfira Səfərova “Şöhrət” ordeni ilə təltif edilib



**Zemfira Yusif qızı Səfərova ”Şöhrət” ordeni ilə təltif edilib.**

Bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Zemfira Səfərova Azərbaycan musiqişünaslığının inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə ”Şöhrət” ordeni ilə təltif olunub.

## Kamran Əliyev Xocavəndə yeni prokuror təyin edib



**Ağcabədi rayon prokurorunun müavini Taleh Osmanov tutduğu vəzifədən azad edilib.**

Bununla bağlı Baş prokuror Kamran Əliyev əmr imzalayıb.

K.Əliyevin digər əmri ilə o, Xocavənd rayon prokuroru təyin olunub.

Baş Prokurorluğun Mətbuat Xidməti ”Report”a təyinatla bağlı məlumatı təsdiqləyib.

## Cəbhədə vəziyyət ağırdır

### Aleksey Reznikov: Ukrayna hər gün 100-ə qədər döyüşçünü itirir

**Ukrayna hər gün 100-ə yaxın döyüşçünü itirir, 500-ü isə yaralanır. Rusiya silahlı qüvvələri cəbhənin bəzi istiqamətlərində irəliləməkdə davam edir.**

Bu sözlər Ukraynanın müdafiə naziri Aleksey Reznikovun bəyanatında yer alıb.

”Cəbhədə vəziyyət ağırdır. Lakin Rusiya silahlı qüvvələri də güclü müqavimətə məruz qalır, böyük itkilər verir”, - deyə nazir əlavə edib.

# Korrupsiya əməllərinə görə həbs edilənlər var

### Azərbaycanda 10 vəzifəli şəxsə cinayət işi başlanılıb

**Azərbaycanın bəzi şəhər və rayonlarında torpaqların özəlləşdirilməsi zamanı qanunsuz əməllərə yol vermiş Əmlak Məsələləri Dövlət Xidmətinin və bələdiyyələrin vəzifəli şəxsləri məsuliyyətə cəlb ediliblər.**

Bu barədə ”Şərq”ə Baş Prokurorluğun Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin və bələdiyyələrin vəzifəli şəxslərinin qanunsuz əməlləri ilə əlaqədar Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində istintaqı aparılan cinayət işi üzrə Dövlət Xidmətinin Şirvan şəhər şöbəsinin rəisi Nazim Səfərov, Ucar ərazi şöbəsinin rəisi Amil Aslanov, Qazax rayonu Daş Salahlı bələdiyyəsinin sədri Asif Yusifov, Şəki rayon Qoxmuq bələdiyyəsinin sədri Etibar Eyvazov və Kürdəmir Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sosial-İqtisadi İnkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdir müavini Ruslan Əliyevin daha əvvəl iş üzrə cəlb edilmiş təqsirləndirilən şəxslərlə birlikdə cinayətkar fəaliyyətdə iştirak etmələri müəyyən edilib.



Belə ki, qeyd edilən şəxslərin 2020-2022-ci illər ərzində Torpaqların dövlət idarəetməsinin təşkili və geodeziya şöbəsinin sektor müdiri İldırım Məmmədov və digər təqsirləndirilən şəxslərlə qabaqcadan əlbir olaraq xidməti vəzifələrinin icrası ilə əlaqədar bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin mülkiyyətə, istifadəyə və icarəyə verilməsinə dair müsbət rəyin verilməsinə görə ayrı-ayrı şəxslərdən müxtəlif məbləğlərdə pul vəsaitlərini rüşvət qismində almalarına əsaslı şübhələr müəyyən edilib.

İstintaq zamanı toplanan sübutlarla yuxarıda adları qeyd edilən şəxslərə (cəmi 10 təqsirləndirilən şəxsə) Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə ağır nəticələrə səbəb olduqda), 311.3.1, 311.3.2, 311.3.3 (rüşvət alma külli miqdarda törədildikdə), 312.1 (rüşvət vermə) və digər maddələri ilə ittiham elan edilməklə barələrində həbs, ev dustaqlığı və digər qətimkan tədbirləri seçilib.

Hazırda qanunsuz əməllərə yol vermiş digər vəzifəli şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi istiqamətində istintaq davam edir.

## Azərbaycan hərbçilərinin iştirak etdiyi "Efes-2022" təlimləri başa çatıb



**Türkiyədə keçirilən ”Efes-2022” çoxmillətli hərbi təlimlər İzmir bölgəsində təşkil olunan ”Yüksək səviyyəli müşahidəçi günü”nə aid iyunun 8-də və 9-da təşkil olunan mərhələlərlə başa çatıb.**

“Şərq” xəbər verir ki, Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov və Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin rəhbərlik etdikləri nümayəndə heyətinin də izlədiyi təlimlərin iyunun 9-da keçirilən sonuncu mərhələsi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı və çıxışı ilə yekunlaşıb.

Bağlanış mərasimində əvvəlcə Türkiyənin milli müdafiə naziri Hulusi Akar Türkiyənin ən böyük hərbi təlimlərindən olan ”Efes-2022”nin məqsəd və hədəfləri barədə müfəssəl məlumat verib.

Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan nitq söyləyib.

Türkiyə Silahlı Qüvvələrinin ”Mehtaran” qrupunun çıxışından sonra türk ulduzları nümunəvi uçuşlar həyata keçiriblər.

Həmçinin paraşütçülər təlimlərdə iştirak edən ölkələrin dövlət bayraqlarını havada nümayiş etdiriblər.

”Efes-2022” təlimlərinin mətbuat mərkəzindən verilən məlumata görə bir ay davam edən təlimlərdə bütün tapşırıqlar qüsursuz yerinə yetirilib.

## Polkovnik-leytenant faciəvi şəkildə həlak oldu



**Vətən Müharibəsi iştirakçısı, polkovnik-leytenant Şöhrət Namazov avtomobil qəzasında həlak olub.**

”Qafqazinfo” xəbər verir ki, hadisə dünən Gəncədə baş verib. Axşam saat 22:00 radələrində Gəncə şəhəri, Gülüstan qəsəbə sakini R.İsmayılov idarə etdiyi ”KİA” markalı avtomobillə yolu keçən Məhsəti qəsəbə sakini Şöhrət Namazovu vurub. Nəticədə piyada xəstəxanaya aparılarkən ölüb. Gəncə Şəhər Baş Polis İdarəsində araşdırma aparılır.

*Qeyd edək ki, Şöhrət Namazov 2016-cı il Aprel döyüşlərinin və Vətən Müharibəsi iştirakçısı olub. Polkovnik-leytenant rütbəsi daşıyan Şöhrət Namazov bu yaxınlarda ordudan ehtiyata buraxılmışdı.*

# ABŞ sülh sazişinin imzalanmasına inanır

### Vaşinqton güclü Azərbaycanla bütün istiqamətlərdə əlaqələrini gücləndirəcək



**”ABŞ-ın Azərbaycanla ikitərəfli əlaqələri ən yüksək səviyyədədir”. Bunu ABŞ-ın Azərbaycandakı səfiri Li Litzenberger brifinqdə deyib. Diplomat qeyd edib ki, ölkələr arasında təmaslar yüksək səviyyədə davam edir. ABŞ səfiri vurğulayıb ki, bu təmasları davam etdiriləcək, gücləndiriləcək:**

”Həm davamlı sülhün əldə olunması, həm də yerdə qalan digər məsələlərin həlli üçün tərəflər əməkdaşlıq etməyə davam edəcək”. Səfir 907-ci düzəlişdən də danışıb: ”Konqresin ”Azadlığa Dəstək Aktı”na 907-ci düzəlişi qüvvədədir. Lakin bu, bizim Azərbaycana çox vacib təhlükəsizlik dəstəyi verməyimizə mane olmayıb. Biz bu sahədə Azərbaycana 100 milyon dollardan çox maliyyə dəstəyi vermişik. Bu vəsait daha çox Azərbaycanın cənub sərhədlərinin təhlükəsizliyinə yönəldilib”. Səfir vurğulayıb ki, 907-ci düzəlişlə bağlı yekun qərar ABŞ Konqresinə aiddir: ”Ancaq mən optimistəm ki, Azərbaycan və Ermənistanın dayanıqlı sülhə nail olması imkanı - hansı ki, biz bu istiqamətdə irəliləyiş görürük - şərait yaradacaq ki, biz Cənubi Qafqaz ölkələri ilə münasibətlərimizi bütün miqyasda əhəmiyyətli dərəcədə nəzərdən keçirək”. O, Prezidentin köməkçisi Hikmət Hacıyevin Vaşinqtonda ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi Ceyk Sallivanla görüşdüyünü xatırladıb. Diplomatın sözlərinə görə, Hikmət Hacıyev və Ceyk Sallivan digər məsələlərlə yanaşı, regionda sülh prosesini də müzakirə ediblər: ”Biz düşünürük ki, ABŞ normallaşma prosesində önəmli rol oynaya bilər. Biz hazırda Avropa İttifaqının tərəflərlə təmasda uğurlu olduğunu görürük və bunu çox dəstəkləyirik. Onlar tərəflər arasında birbaşa təmasların və görüşlərin baş tutmasında vasitəçilik edir. Liderlər, XİN rəhbərləri və digər səviyyələrdə təmaslar davam edir, sərhədlərin delimitasiyası, regionda kommunikasiyaların açılması məsələləri müzakirə edilir”.

**ABŞ-Azərbaycan əlaqələri ilə bağlı ”Şərq”ə danışan Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli deyib ki, 44 gün davam edən Vətən müharibəsi nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin Ermənistan tərəfindən işğalına son qoyulub. Ölkəmizin ərazi bütövlüyü bərpa olunub. BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin icrası təmin edilib:** ”Münaqişənin başa çatması bölgədə yeni geosiyasi reallıq yaradıb. Davamlı sülh, iqtisadi dirçəliş və regional əməkdaşlıq üçün əlverişli zəmin formalaşdırıb. Ukraynada baş verənlər də bölgədə böyük güclərin siyasətinə əhəmiyyətli təsir göstərib. ABŞ və Avropa Birliyinin son mövqelərində bunun şahidi ola bilərik. İndiki situasiyada Vaşinqtona Cənubi Qafqaz siyasətində Azərbaycanla daha da yaxınlaşmaq sərfəlidir. Rusiyanın regionda təsirlərinin azaldılması üçün Amerika konfrantasiya yolundan imtina etməlidir, yəni Ermənistan hakimiyyətinə açıq dəstəklə yanaşı rəsmi Bakı üzərində Rusiya təsirlərinin güclənməsinə imkan verməməlidir. Rusiya məsələsi ötən bu müddət ərzində beynəlxalq normalara cavab verə biləcək səviyyədə deyil. ABŞ onu artıq başlıca təhlükə mənbəyi olaraq görür. Odur ki, Azərbaycanın Ukraynanın suverenliyi və beynəlxalq enerji təhlükəsizliyi sahəsində oynadığı rola əhəmiyyət verir. Avropa İttifaqı kimi qurumların, ABŞ kimi söz sahibi olan dövlətlərin son illərdə ölkəmizə etimadı daha da artıb və onlar əməkdaşlığa hazır olduqlarını bildirirlər. Bu əməkdaşlıqlar arasında mühüm amillərdən biri də hazırda dünyada cərəyan edən mürəkkəb hadisələr fonunda enerji təhlükəsizliyinə Azərbaycanın verə biləcəyi töhfədir”.

**S.Əsədli xatırladıb ki, ABŞ Prezidenti Cozef Baydenin dövlətimizin başçısına son məktubunda təkcə Azərbaycana məxsus qaz yataqlarının vacibliyindən deyil, həm də ölkəmizin bu sahədə böyük, regional tranzit oyunçuya çevrilməsindən danışılması diqqətçəkən məqamlardandır:** ”ABŞ prezidentinin bu məktubu onu deməyə əsas verir ki, dünyanın super gücü olan Amerika Azərbaycanı regionun lider dövləti kimi qəbul edir. Xüsusilə, Qafqaz və ümumən Trans-Xəzər regionunun inkişafı və gələcək əməkdaşlıq perspektivləri baxımından Azərbaycanla münasibətlərin inkişaf etdirilməsinə önəm verilir. Burada bir məsələni də xüsusilə qeyd etməliyik ki, ABŞ fərqindədir ki, regionun inkişafı Azərbaycanın və onun liderinin qlobal miqyaslı səyləri və konstruktiv mövqeyi ilə sıx bağlıdır. Bu baxımdan, ABŞ Azərbaycanla münasibətlərə yüksək dəyər verir və gələcək əməkdaşlığı da yeni müstəvidə davam etdirməkdə maraqlıdır”.

**İsmayıl Qocayev**



# “ABŞ bütün ölkələrin ərazi bütövlüyünü dəstəkləyir"

## Li Litzenberger: “Əgər bu regiondakı ölkələrin müstəqilliyinə, ərazi bütövlüyünə təhdid olarsa, ABŞ lazımi addımlar atacaq”

**“Azərbaycanda tarixi hadisələrə şahidlik etdim”. Bu sözləri Azərbaycandakı diplomatik missiyasını başa vuran Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri Li Litzenberger brifinqdə bildirib. Səfir deyib ki, Azərbaycanda çalışmaqdan qürur duyub:**

"Əminəm ki, bizim münasibətlərimiz əmin əllərdədir. ABŞ-ın Azərbaycanla ikitərəfli əlaqələri ən yüksək səviyyədədir. Vaşinqton bu təmasları davam etdirəcək, gücləndirəcək. Həm davamlı sülhün əldə olunması, həm də yerdə qalan digər məsələlərin həlli üçün tərəflər əməkdaşlıq etməyə davam edəcək".

**“Azərbaycanda mina probleminin həlli vacibdir”**

**ABŞ-ın Azərbaycandakı səfiri Li Litzenberger bildirib ki, Azərbaycan ərazilərinin minalarla çirkləndirilməsi məsələsi ciddi problemdir:** "Əgər ərazilər minalardan təmizlənməsə, məcburi köçkünlər ora qayıda bilməyəcəklər". Onun sözlərinə görə, bir sıra ABŞ şirkəti işğaldan azad edilmiş ərazilərin yenidən qurulması prosesində iştirak edir: "ABŞ-ın bu sahədə böyük təcrübəsi var, biz ən yaxşı texnikaları təqdim edə bilərik. Qarabağda daha çox ABŞ şirkətlərini görmək istəyirik".

**"Bu məsələdə Azərbaycanın rolu çox önəmlidir"**

**Litzenberger bildirib ki, ABŞ Azərbaycanın Aİ ölkələrinə daha çox təbii qaz tədarük edəcəyinə inanır:** "Azərbaycan təbii qazının Avropa İttifaqı (Aİ) ölkələrinə daha böyük həcmdə tədarük ediləcəyinə inanırıq. Bu, Rusiya təbii qazından asılılığı azaltmağa kömək edəcək. Azərbaycanla təbii qaz tədarükünü necə yüksəltməyi, hətta daha yaxşısı, ikiqat artırmağı müzakirə edirik". Diplomatın sözlərinə görə, günəş və hidrogen enerjisi daxil olmaqla, "yaşıl enerji" mənbələrinə diqqət yetirməyə dəyər: "Bu məsələdə Azərbaycanın rolu çox önəmlidir".

**ABŞ Azərbaycan, Türkiyə və Ermənistan arasında daha sürətli nailiyyətin əldə olunmasını istəyir:** "Biz regionda sülhün və barışığın əldə olunması üçün istənilən ölkənin konstruktiv rolunu dəstəkləyirik. Türkiyə bunu edir". O, Türkiyə və Ermənistanın artıq əlaqələrin normallaşması istiqamətində danışıqlara başladığını xatırladıb: "Biz bunu alqışlayırıq və dəstəkləyirik. İstərdik ki, daha sürətli proqress əldə olunsun. Və bunun həmçinin, Azərbaycan və Ermənistan arasında da baş verməsini istərdik. Türkiyə NATO müttəfiqidir və Türkiyənin müxtəlif regionlarla təmasları ilə bağlı rahatlığımız var".

**"Bu üç ölkə artıq dialoqa başlayıb..."**

*ABŞ səfiri, Türkiyənin İsveç və Finlandiyanın NATO-ya üzvlüyü ilə bağlı narahatlığına da toxunub. Səfir qeyd edib ki, bunu aradan qaldırmağın yolu tərəflər arasında dialoq və kommunikasiyadır:* "Bu üç ölkə artıq dialoqa başlayıb və narazılıqları müzakirə edir. Düşünürəm ki, bu irəliləyişə nail olmağın ən yaxşı yoludur. Mən NATO-da xidmət etmişəm və danışıqların necə keçdiyini bilirəm. Ölkələrin fikir ayrılığını müzakirə etməsi normaldır, ancaq NATO-da vacib olan əsas element önəmli məsələlərlə bağlı bütün ölkələrin konsensus əldə etməsidir. Mən əminəm ki, bu məsələdə də konsensusa nail olunacaq".

**“Xəzər dənizinin Azərbaycan sektorunda təhlükəsizliklə bağlı dəstək vermişik”**

*Səfir 907-ci düzəlişdən də danışıb:* "ABŞ Konqresinin "Azadlığa Dəstək Akt"ı"na 907-ci düzəlişi qüvvədədir. Lakin bu, bizim Azərbaycana çox vacib təhlükəsizlik dəstəyi verməyimizə mane olmayıb. Biz bu sahədə Azərbaycana 100 milyon dollardan çox maliyyə dəstəyi vermişik. Bu vəsait daha çox Azərbaycanın cənub sərhədlərinin təhlükəsizliyinə yönəldilib". Səfir vurğulayıb ki, 907-ci düzəlişlə bağlı yekun qərar ABŞ Konqresinə aiddir: "Ancaq mən optimistəm. Azərbaycan və Ermənistanın dayanıqlı sülhə nail olması imkanı - hansı ki, biz bu istiqamətdə irəliləyiş görürük - şərait yaradacaq ki, biz Cənubi Qafqaz ölkələri ilə münasibətlərimizi bütün miqyasda əhəmiyyətli dərəcədə nəzərdən keçirək". Litzenbergerin sözlərinə görə, ABŞ Azərbaycana monitorinq-skan sistemləri verib, Azərbaycanda sərhədçilərə və gömrük əməkdaşlarına təlimlər keçib ki, bu, əsasən, qaçaqmalçılıqla mübarizə sahəsinə aiddir. Diplomat deyib ki, verilən bu dəstək nəticəsində əhəmiyyətli nəticələr əldə olunub: "Biz eyni zamanda, Xəzər dənizinin Azərbaycan sektorunda təhlükəsizliklə bağlı dəstək vermişik. Bu, Xəzərdə Azərbaycanın enerji resursları ilə bağlı infrastrukturunun qorunmasına kömək edir. Bildiyiniz kimi, Azərbaycan qazı Cənub Qaz Dəhlizi ilə İtaliyaya nəql olunur, bu ölkənin enerji resurslarının şaxələndirilməsində əhəmiyyətli rol oynayır".

**"Hikmət Hacıyev Vaşinqtonda vacib görüşlər keçirib"**

Səfir Prezidentin köməkçisi Hikmət Hacıyevin Vaşinqtonda ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi Ceyk Sallivanla görüşdüyünü xatırladıb. Diplomatın sözlərinə görə, Hikmət Hacıyev və Ceyk Sallivan digər məsələlərlə yanaşı, regionda sülh prosesini də müzakirə ediblər: "Biz düşünürük ki, ABŞ normallaşma prosesində önəmli rol oynaya bilər. Biz hazırda Avropa İttifaqının tərəfindən təmasda uğurlu olduğunu görürük və bunu çox dəstəkləyirik. Onlar tərəflər arasında birbaşa təmasların və görüşlərin baş tutmasında vasitəçilik edir. Liderlər, XİN rəhbərləri və digər səviyyələrdə təmaslar davam edir, sərhədlərin delimitasiyası, regionda kommunikasiyaların açılması məsələləri müzakirə edilir".

**"Xoşbəxtlikdən Azərbaycanın Rusiya ilə normal əlaqələri var"**

**Diplomat deyib ki, Rusiya-Ukrayna münaqişəsinin həll yolunun tapılması ilə bağlı yekun qərar Ukraynanındır:** "ABŞ hər zaman bunu bilirdi. ABŞ Azərbaycanın Ukraynanın müstəqilliyinə və ərazi bütövlüyünə dəstəyini yüksək qiymətləndirir, eyni zamanda, Azərbaycanın göstərdiyi humanitar yardımı təqdir edir". Səfir vurğulayıb ki, Azərbaycan da münaqişədən əziyyət çəkib və bu problemi yaxşı anlayır: "Azərbaycan dünyanın digər ölkələri kimi, Ukrayna ilə həmrəydir". Səfir qeyd edib ki, Rusiya Prezidenti Vladimir Putin öz hərbi ambisiyaları naminə ölkələrin sərhədlərinə hörmət etməyə bilər. Lakin səfir bildirib ki, xoşbəxtlikdən Azərbaycanın Rusiya ilə normal əlaqələri var və bu çox vacibdir: "Ancaq Rusiya gözlənilməz hərəkət edə bilər. Biz bunu Ukraynada gördük. Ukraynada üzləşdikləri Rusiyanın gələcək addımlarına təsir edə bilər. Biz Baltik regionunda vəziyyəti görürük. İsveç və Finlandiya NATO-ya qoşulmaq istəyir. ABŞ bütün ölkələrin ərazi bütövlüyünü dəstəkləyir və əgər bu regiondakı ölkələrin müstəqilliyinə, ərazi bütövlüyünə təhdid olarsa, ABŞ lazımi addımlar atacaq".

İsmayıl

# AZAL ləğv olunmalıdır

## Nəinki kasıb təbəqə, heç ortabablar belə problemlərini həll etmək üçün xaricə gedə bilmirlər



**“Azərbaycanın dünyaya çıxışını əngəlləyən "dəmir pərdə" AZAL ləğv olunaraq onun yerinə dünya standartlarına uyğun təşkil olunmuş avia-kampaniya yaradılmalıdır”.**

**Bu barədə "Şərq"ə açıqlamasında Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev deyib.** Partiya təmsilçisi qeyd edib ki, ölkənin bütün təbəqələri, siyasi və ictimai xadimlərinin narazılıqlarına baxmayaraq, AZAL vətəndaşların konstitusion hüquqlarını məhdudlaşdırmaqla məşğuldur: "Nəinki kasıb təbəqə, heç ortababları belə ölkəni tərk edərək xarici dövlətlərdə vacib işlərini həll edə bilmirlər. Milyonlarla insanımız müasir dünyanın tələblərinə uyğun olaraq təhsil, biznes, tibbi müayinə və müalicədən məhrum qalır. Onminlərlə insan tələb olunan tibbi müayinədən keçə bilmədiyi üçün xəstəlikləri irəliləyir və sonunda ağır fəsadlarla nəticələnir. Xaricdə təhsil almaq üçün gənclərimiz nüfuzlu Amerika və Avropa universitetlərinə qəbul olunsalar da, fantastik qiymətlərdəki təyyarə biletlərini ala bilmirlər. Bizneslə məşğul olmaq istəyən orta təbəqə məhz bu səbəbdən xarici səfərləri gerçəkləşdirməkdən məhrum qalır. Bu hallar inkişafımızı əngəlləyən mühüm faktorlardır. Problem daim gündəmə gətirilsə də, bu istiqamətdə gərəkli addımların atılması gecikir".

İsmayıl

# "Qərb Rusiya-Ukrayna savaşının dayanmasını istəmir"

## Əhəd Məmmədli: "Türkiyə rəsmi Moskvaya təsir göstərə bilər, təəssüf ki, Ukraynaya ABŞ və Böyük Britaniyanın təsiri daha böyükdür"



**Rusiya hazırda Ukrayna ərazisinin 20 faizini işğal edib. "APA"xəbər verir ki, bunu Ukrayna Prezidenti Volodimir Zelenski Lüksemburq parlamentində videoformatda çıxışında deyib. O bildirib ki, hazırda cəbhə xətti 1000 kilometrdən çoxdur: "Dəmək olar ki, bütün Rusiya ordusuna qarşı özümüzü müdafiə etməliyik.**

Bu təcavüzdə Rusiyanın döyüşə hazır bütün hərbi birləşmələri iştirak edir" deyə Ukrayna lideri qeyd edib. Zelenskinin sözlərinə görə, Ukraynanın şərqində hər gün 100 ukraynalı ölür, 450-500 nəfər isə yaralanır.

Dünya gündəmini zəbt edən bu müharibənin nə zaman sona yetəcəyi maraq doğurur. Qeyd edək ki, savaş artıq 100 gündən çoxdur, davam edir.

**Amerika və Böyük Britaniyanın müharibənin dayanmasını istəmədiyini deyən politoloq Əhəd Məmmədli bu barədə proqnozlarını "Şərq"lə bölüşüb:** "Müharibənin ilk günlərində Ukraynanın hansısa uğurlarından söz gedə bilərdi? Lakin ruslar yenidən qruplaşma edərək Donbasa hücuma keçdi və Ukranyanın 20 faizini işğal etdilər. Son 20 gündür, Rusiya rəsmilərinin çox rahat danışmalarının səbəbi budur.

Türkiyə müharibənin sonlanması üçün əlindən gələni edir. Ancaq Qərb savaşın rəsmi Ankaranın əli ilə dayandırılmasını istəmir. Türkiyə rəsmi Moskvaya təsir göstərə bilər, təəssüf ki, Ukraynaya ABŞ və Böyük Britaniyanın təsiri daha böyükdür.

Birləşmiş Ştatların nə zaman atəşkəs qərarına gəlib-gəlməməsini yaxın zamanlarda müşahidə edəcəyik".

Nihat Müzəffər

# Lavrov İrəvanda sülhü pozacaq açıqlama verib

## Ekspert hesab edir ki, XİN başçısının fikirləri İrəvanı sakitləşdirmək, onları daha çox Moskvanın yanında saxlamaq niyyətindən qaynaqlanır

**Rusiyanın Xarici işlər naziri Sergey Lavrov dünən Ermənistanda erməni həmkarı Ararat Mirzoyanla görüşdən sonra keçirilən mətbuat konfransında Azərbaycanın əleyhinə fikir səsləndirib. Xocalı rayonunun Fərrux kəndi ətrafında yaranmış vəziyyət barədə suala cavabında Lavrov diplomata yaraşmayan ifadələrə yol verib.**

Rusiya XİN başçısı bildirib ki, Fərruxdakı hadisənin nizamlanması Qarabağdakı Rusiya sülhməramlı hərbçilərinin prioritetlərindən biridir: "Erməni dostlarımız da bu barədə yaxşı məlumatlıdır. Artıq vəziyyətin deeskalasiyası nöqteyi-nəzərindən "yerdə" müəyyən nəticələr var. Bizdə anlayış var ki, delimitasiya ilə bağlı başlayan predmetli iş çərçivəsində bu məsələlərə baxılacaq və mütləq həll olunacaq". Lavrovun fikirlərində diqqətçəkən məqam odur ki, o, Azərbaycanın beynəlxalq ictimaiyyət tərəfindən tanınmış və qəbul edilmiş Qarabağ regionunda hansısa delimitasiya prosesindən danışır. Halbuki, Prezident Vladimir Putin də "Dağlıq Qarabağ"ın Azərbaycan ərazisi olduğunu dəfələrlə bəyan edib. Delimitasiya isə iki ölkənin sərhədlərinin müəyyənləşdirilməsi üçün aparılan prosesdir. Azərbaycanla Ermənistan arasında yaradılmış müvafiq komissiya məhz iki ölkənin sərhədlərinin müəyyənləşdirilməsi və dəqiqləşdirilməsi ilə məşğul olur. Qarabağ, Xankəndi, Fərrux kəndi Azərbaycan ərazisi olduğu üçün Lavrovun haqqında danışdığı delimitasiya prosesi mənasız olduğu qədər də düşündürücüdür. Bu, Rusiyanın məsələn, Dağıstan, Çeçenistan və digər əraziləri ilə delimitasiya deməkdir. Görünür, Rusiya XİN başçısı hazırkı həssas məqamda bu ifadəsi ilə vəziyyəti daha gərginləşdirdiyinin fərqində deyil. Xüsusən, Qarabağda sülhməramlı missiyası olan bir ölkənin baş diplomatının bu cür ehtiyatsız, sülh prosesinə təhlükə yaradacaq açıqlaması yolverilməzdir.



**"Şərq"ə açıqlamasında siyasi icmalçı Azər Niftiyev bildirib ki, Rusiya regionda "dirijor çubuğu"nu heç zaman yerə qoymayıb. Ekspertin sözlərinə görə, Lavrovun son açıqlamalarına bu rakursdan yanaşmaq lazımdır:** "Təbii ki, Dağlıq Qarabağ münaqişəsinin yaranmasında, torpaqlarımızın 30 ilə yaxın müddət ərzində işğal altında qalmasına səbəb olan iki əsas faktordan biri Rusiyadır. Digər səbəb isə Ermənistanın hərbi-siyasi rəhbərliyinin işğalçı siyasəti, daxili böhranı bu yolla kompensasiya etmək cəhdləri ilə bağlıdır. 44 günlük Vətən müharibəsi zamanı əldə etdiyimiz tarixi Zəfər regionda yeni reallıqlar yaradıb. Ermənistan hər vəchlə Azərbaycanı qaralamağa, beynəlxalq dəstək qazanmağa çalışır. Çünki əlindən gələn yeganə şey budur və istər hərbi, istər siyasi, istərsə də iqtisadi baxımdan mübarizə aparmaq iqtidarında deyil. Rusiya Xarici Siyasət İdarəsi rəhbərinin son açıqlaması rəsmi İrəvanı sakitləşdirmək, onları daha çox Moskvanın yanında saxlamaq niyyətindən qaynaqlanır. Artıq Rusiya elitasında da anlayırlar ki, münaqişə əsas etibarilə başa çatıb və mövcud şəraitdə artıq Kremlin də buna təsir imkanları yoxdur".

**A.Niftiyevin sözlərinə görə, Rusiyanın başı özünə qarışıb və Qərbdən gələn təzyiqləri neytrallaşdırmaqla məşğuldur:** "Regional münaqişələrə münasibətdə Moskvanın son dövrlər artan "həssaslığı" da bununla bağlıdır. Rusiya rəhbərliyi göstərmək istəyir ki, Ukraynaya təcavüzü və bunun nəticəsində ölkəsinə qarşı yönələn təzyiqlər onları sarsıtmayıb. Ənənəvi fəaliyyətdə olduqlarını və hər şeyin plan üzrə getdiyini nümayiş etdirməyə çalışırlar. Əslində isə Qarabağ münaqişəsi və digər regional münaqişələr hazırda Moskvanın maraq dairəsində deyil. Rusiyanın əsas marağı hər vəchlə postsovet ölkələrini nəzarətdə saxlamaq, daxildə mərkəzdənqaçma meyillərinin qarşısını almaqdır. Lavrovun son bəyanatından ciddi nəticələr çıxarmağa dəyməz. Təbii ki, Rusiya hər zaman işğalçı Ermənistana dəstək verib və burada təəccüblü bir şey də yoxdur. Rəsmi Bakı buna öz etirazını bildirmişdir. Lakin İrəvanın da ümidlənməsinə dəyməz".

İsmayıl Qocayev

# Ermənistanla Azərbaycan arasında yekun razılaşma olacaq

## Vaşinqton, Brüssel, Moskva tərəfinin açıqlamaları müsbət yöndədir



İsmayıl Qocayev

**"Ermənistan və Azərbaycan arasında yekun razılaşmalar əldə olunacaq". Bunu Rusiyanın Xarici işlər naziri Sergey Lavrov Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanla danışıqların yekunlarına dair mətbuat konfransında deyib. Rusiyanın xarici işlər naziri bildirib ki, tempin daha sürətli olmasını istərdik, lakin buna baxmayaraq, proses gedir və mühüm müsbət nəticələr əldə edilir:**

"Biz, Ararat Mirzoyanın dediyi kimi, Rusiyanın məşvərətçi yardımı ilə Ermənistan-Azərbaycan sərhədlərinin delimitasiyası üzrə komissiyanın işi mövzusuna da toxunduq". Lavrov vurğulayıb ki, Rusiya İrəvanla Bakı arasında sülh müqaviləsinin bağlanmasına və ümumilikdə bu regionda mövcud humanitar problemlərin həllinə kömək etməyə hazırdır: "Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşmasına dair yekun razılaşmalar əldə olunacaq, buna şübhə yoxdur. Liderlərimiz münaqişənin sona çatması, münasibətlərin normallaşması ilə bağlı praktiki məsələləri həll etmək üçün üç dəfə görüşdülər. Fikrimcə, prosesin irəli getməsi ilə bağlı ümumi fikrimiz var. Biz tempin daha sürətli olmasını istərdik, lakin buna baxmayaraq, proses gedir və mühüm müsbət nəticələr əldə edilir. Əminəm ki, ikitərəfli münasibətlərin tam normallaşmasından başqa yol yoxdur".

**Lavrovun açıqlamasını "Şərq"ə təhlil edən politoloq Məhəmməd Əsədullazadə Rusiya XİN başçısının ifadələrinin xüsusi əhəmiyyət kəsb etdiyini deyib.** Ekspert bəyan edib ki, Lavrovun İrəvandakı bəyanatı Azərbaycanın prinsipial mövqeyindən, konkret yanaşmasından irəli gəlir: "Rəsmi Bakı Ermənistanla normallaşma prosesindən geri çəkilmir. Brüssel və Vaşinqton prosesə töhfə verməyə çalışır. Rusiya bundan narahat olduğu üçün Lavrovu İrəvana göndərərək baş diplomatın dili ilə tərəflərin sülh müzakirələri çərçivəsində pozitiv açıqlamalar verir. Əslində Moskva çalışır ki, Brüssel prosesini, Qərbin aktivliyini arxa plana keçirsin. Amma Lavrovun necə deməsindən asılı olmayaraq, Azərbaycan və Ermənistan arasında yekun razılaşma olacaq. Türkiyə-Azərbaycan tandemi prosesi daha uğurla irəliyə aparır. Avropa İttifaqı da prosesə töhfə verir. Ümumən, bütün tərəflərin açıqlamaları müsbət yöndədir. Rusiya da anlayır ki, proses reysə düşüb və bunu tormozlamaq qeyri-mümkündür. O baxımdan irəli doğru istiqamətlənmiş prosesdə Kremlin daha aktiv rol oynamasını təmin etməyə cəhd göstərirlər".

# ABŞ səfiri açıq mesaj verdi

## Rusiyanın təhlükəli planı işləsə Amerika Azərbaycanı tək qoymayacaq



**Ayyət Əhməd**

**"Daha əvvəl də, bir neçə dəfə bildirmişdik ki, Rusiyanın növbəti hədəfi Azərbaycan olacaq. Tacikistandakı vəliəhd əməliyyatı ilə mərkəzi Asiya artıq tam nəzarətdədir. Putin Sovet İttifaqını bərpa etmək üçün Orta Asiyada heç bir maneəyə rast gəlmir".**

*Bu barədə "Şərq"ə siyasi şərhçi Turab Rzayev bildirib. Analitik qeyd edib ki, Şərqi Avropa ərazisində isə Belarus artıq ram edilib. Ukrayna işğal olunur. Moldovanın taleyi isə Ukrayna müharibəsinin gedişatından asılıdır. Qorxuya düşən Sandu hökuməti hər ehtimal keçmiş prezident Rusiyameyilli İqor Dodonu həbs edib:*

"Qalır bizim başı bəlalı Qafqaz. Burda iki ölkədən hər hansı birini işğal etmək, digərini də çətin vəziyyətə salır. Gürcüstan Azərbaycanın dünyaya açılan qapısıdır, Gürcüstan işğal olunarsa, Azərbaycan yarıasılı hala düşəcək. Eyni şəkildə Gürcüstan Azərbaycanın iqtisadi əlavəsi olduğu üçün Azərbaycan işğal edilərsə, Gürcüstan da suverenliyini itirmiş olacaq.

Ancaq Gürcüstandakı NATO qüvvələrini və Qara Dənizdən Gürcüstana açıq dəstəyi nəzərə alsaq, növbəti işğal hədəfi rəsmi Bakıdır.

Azərbaycanın işğalı qarşısında bir maneə çoxdan vardır. Türkiyə - canımız, qanımız, öz dövlətimiz, eyni zamanda Şuşa Bəyannaməsi ilə rəsmi olaraq strateji və hərbi müttəfiqimiz. Ancaq nüvə silahı və ballistik raketlərlə dünyanı təhdid edən rus ayısının qarşısını kəsmək üçün bu yetərlidirmi?

Xatırlayırsınızsa, müxalif kəsim ABŞ Prezidenti Co Baydenin ölkədəki siyasi və ictimai azadlıq ilə bağlı məktubdakı cümləsini müxalifətə dəstək və Azərbaycan siyasi hakimiyyətinə təzyiq kimi dəyərləndirmişdi. Biz isə israrla, bu cümlələrin əslində hakimiyyətə xəbərdarlıq mesajı daşıdığını demişdik. Ağ Ev Azərbaycan dövlətini perspektiv təhlükələrdən xəbərdarlıq edir. Azərbaycanda Qazaxıstan senarisinin işə salına biləcəyini bildirir. Buna qarşı ayıq və sayıq olmağa çağırırdı. Əslində stabilliyin pozulmasına şərait yaratmağa çağırış idi bu.

**Ekspert diqqətə çatdırıb ki, bu gün həmin məktubun final nöqtəsi qoyuldu:**

"ABŞ-ın Azərbaycandakı səfiri açıq şəkildə 2 mesaj verdi: - Birincisi, Azərbaycanda milyardlarla dollar sərmayə yatırılıb, sabitliyin pozulmasında maraqlı deyilik. İkincisi, Azərbaycana hərbi müdaxilə edilərsə, Azərbaycanı müdafiə edəcəyik.

Son cümlə kifayət qədər açıq, ciddi və təhlükənin nə qədər yaxında olduğunu ifadə edən mesajdır. Yəni Rusiyanın Azərbaycanı işğal planları artıq çox ciddidir və gündəmdədir. Amerika açıq şəkildə Rusiyanın Azərbaycanı işğal planına deyinir.

Bundan başqa, Amerika Birləşmiş Ştatları Azərbaycanı tək qoymayacaq, Azərbaycana Ukraynaya verdiyi bütün dəstəyi, silah, maliyyə, kəşfiyyat, muzdlu əsgər, texnika və texnologiya dəstəyini əsirgəməyəcəkdir.

Bu isə yetər. Azərbaycan arxasında və yanında dayanmış qardaşı Türkiyənin hərbi və siyasi dəstəyini həmişə hiss edir. Əgər ABŞ da Azərbaycan dövlətinə açıq hərbi dəstək verəcəyini bildirirsə, deməli, qorxması lazım olan biz deyilik. Azərbaycan Ukrayna deyil. Biz düşmənə əsl cəhənnəm yaşadarıq. Yaşasın Azərbaycan Dövləti!Yaşasın Türkiyə! Yaşasın dostlarımız!".



# Lavrov əndazəni aşıb

## XİN başçısı Azərbaycanın ərazi bütövlüyünə qarşı hörmətsizlik edib

**Xocalı rayonunun Fərrux kəndi məsələsi gündəmdən düşmür. Azərbaycan hərbçiləri martın 24-dən sonra mövqelərin və dislokasiya yerlərinin dəqiqləşdirilməsi nəticəsində Xocalının Fərrux kəndinə nəzarəti ələ keçirib.**

Sözügedən yaşayış məntəqəsi ətrafındakı Daşbaşı yüksəkliyində (ermənilər Qaraqlux yüksəkliyi deyirlər - red.) mövqe tutması Ermənistan rəhbərliyində, eləcə də Qarabağdakı separatçılarda narahatlığı artırıb. Rusiya XİN başçısı Sergey Lavrov da ermənistanlı həmkarı Ararat Mirzoyanla birgə brifinqdə Fərrux kəndi ilə bağlı sualı cavablandırıb.

S.Lavrov bu məsələnin delimitasiya prosesi çərçivəsində həllini tapmalı olduğunu vurğulayıb. Azərbaycan XİN-in yaydığı cavab xarakterli məlumata görə, sərhəd komissiyaları sadəcə iki ölkənin dövlət sərhədinin delimitasiyası məqsədini güdür. Sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərə dair məsələyə baxılması nəzərdə tutulmur.

Gedişat göstərir ki, Azərbaycanın Fərrux kəndi istiqamətindəki yeni mövqelərdə möhkəmlənməsini ermənilərlə yanaşı, Qarabağdakı Rusiya sülhməramlıları da həzm edə bilmirlər.

Qeyd edək ki, 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli bəyanata uyğun olaraq Fərrux kəndi müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə keçmişdi. Ancaq ermənilərin qanunsuz silahlı dəstələri 30 il əvvəlki kimi yenidən Fərruxdan atəş açmağa və regionda atəşkəsi pozmağa başladı. Azərbaycan Ordusu əməliyyat keçirərək ərazini qanunsuz silahlılardan təmizləyib.

**XİN başçılarının ismarıclarını "Şərq"ə dəyərləndirən Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəylinin qənaətincə, Rusiya ilə Ermənistanın birgə çox ciddi niyyətləri var:**

"Əsas söhbət Fərrux kəndi məsələsi üzərindən Ağdərə zonasında Rusiya və Ermənistanın birlikdə nəzarətinin təmin olunmasından gedir. Onlar gələcəkdə bu vasitə ilə Tərtər və Goranboy, o cümlədən Gəncə dəhlizinə çıxış əldə etmək istəyirlər. İlk hərbi situasiya yetişdiyi təqdirdə Gəncə dəhlizini ələ keçirməyə çalışacaqlar.

Gəncə dəhlizi Azərbaycanın "ana, qan damarı"dır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi dəmir yolu, qaz kəməri, qatar, avtomobil, daşımalar, beynəlxalq internet yolları bir sözlə, hamısı həmin ərazidən keçir. Yəni Azərbaycanın ikiyə bölünməsi anlamına gəlir. Cənuba doğru digər istiqamət şübhəsiz ki, Cəbrayıl məsələsi, Xudafərin körpüsünün iqtisadi, strateji mahiyyətidir. Gələcəkdə nəzarətə götürməyi planlayırlar.

S.Lavrovun Fərrux kəndinə dair səsləndirdiyi fikir Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlikdir".

**Aygün Tahir**

# İsveç və Finlandiya Ankaranın şərtlərinə əməl etməlidir

## Bundan sonra Türkiyə hər iki ölkənin NATO yoluna "yaşıl işıq" yandıracaq



**İsmayıl Qocayev**

**Rəsmi Ankara hələ də İsveç və Finlandiyanın NATO-ya daxil olması ilə razılaşa bilmir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan növbəti dəfə bəyan edib ki, İsveç televiziyası terror qruplaşmalarının liderləri ilə müsahibə yayıb. Ərdoğanın sözlərinə görə, bundan sonra Ankara "NATO-ya xoş gəlmisiniz" deyə bilməz:**

"Eyni şey Finlandiyaya da aiddir. NATO təhlükəsizlik təşkilatıdır və terroru dəstəkləməməlidir". Xatırladaq ki, İsveç və Finlandiyaya on şərt irəli sürüb. Tələblər paketi mayın 25-də Ankarada keçirilən danışıqlarda İsveç və Finlandiya nümayəndələrinə təqdim olunub. Sənədə əsasən, hər iki ölkə terror təşkilatlarına qarşı mübarizədə Ankaraya dəstəyini bəyan etməli və bu barədə müvafiq qanunvericilik aktları qəbul etməlidir. İsveç və Finlandiya öz ərazilərində PKK ilə əlaqəli bütün təşkilatları, həmçinin onların aktivlərini və media resurslarını bağlamalıdır. Bundan başqa, Ankara Stokholm və Helsinkidən müdafiə sənayesi məhsullarına qoyulan embarqonun ləğvini və terrorçularla əlaqəsi olan şəxslərin ekstradisiyasını tələb edir. Türkiyə hökuməti, eyni zamanda ölkələrin kəşfiyyat xidmətləri arasında terrorla mübarizədə əməkdaşlıq qurulmasını istəyir.

**"Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları" Mərkəzinin sədri Samir Hümbətov "Şərq"ə bildirib ki, Türkiyənin təklifləri ədalətli olmaqla yanaşı, həm də nəticə yönlüdür.** Analitikin fikrincə, İsveç və Finlandiyanın başqa seçimi yoxdur: "Qərb ölkələri Türkiyənin haqlı tələblərinə etiraz edə bilmirlər. Hətta ABŞ İsveç və Finlandiyanı yola gətirməyə, Türkiyənin şərtlərini qəbullanmağa vadar etməyə çalışır. Yaranmış beynəlxalq vəziyyət, regional proseslər də bunu sürətləndirir. İsveç və Finlandiya yaxşı başa düşür ki, Rusiya qarşısında onların təhlükəsizliyini qoruyacaq yeganə güc NATO-dur. O baxımdan hər iki ölkə üçün hərbi bloka daxil olmaq çox vacibdir. Ehtimal ki, müəyyən müddət keçəndən sonra İsveç və Finlandiya Ankara hökumətinin şərtlərini qəbul edəcək və Türkiyə prosesə "yaşıl işıq" yandıracaq. Əslində Türkiyəni narahat edən sadəcə terrorçulara yardım, ikili standartlar deyil. Məsələ ondadır ki, 70 illik NATO rəhbərliyində türk əsilli şəxs olmayıb. Ankaranın bununla bağlı da tələbləri var".

# Gürcüstan hərbi xidmət müddəti səkkiz aya endiriləcək



**Gürcüstanda məcburi hərbi xidmət müddəti 12 aydan 8 aya endiriləcək. Çağırışçılar yalnız Müdafiə Nazirliyinin strukturlarında xidmət keçəcək.**

Bunu ölkənin müdafiə naziri Cuanşer Burçuladze cümə axşamı parlamentdə görülən işlər barədə hesabat verərkən deyib.

"Milli hərbi çağırış xidməti formalaşdırılacaq. Xidmət müddəti 12 ay deyil, səkkiz ay olacaq. Çağırışçılar yalnız Müdafiə Nazirliyinin strukturlarında xidmət keçəcək. Bu o deməkdir ki, gənclərimiz yüksək səviyyəli ilkin döyüş hazırlığı əldə edəcəklər. Xidmət zamanı yalnız hərbi tapşırıqlar yerinə yetiriləcək və bu, ehtiyatda olan xidmət üçün əla baza yaradacaq", - Burçuladze bildirib.

*Qeyd edək ki, hazırda Gürcüstanda məcburi hərbi xidmət həm Müdafiə Nazirliyinin strukturlarında, həm də Daxili İşlər, Ədliyyə Nazirliyi və Xüsusi Dövlət Mühafizə Xidmətinin strukturlarında həyata keçirilə bilər. Xidmətə 18 yaşdan 27 yaşa kimi şəxslər çağırılır.*

**Mənbə: TASS**



# Əhməd Cavad hamıdan çox təbliğ olunmalıdır

## Çünki o, heç zaman milli mövqeyindən dönməyib

**Türkiyənin paytaxtı Ankarada poeziyanın nadir simalarından biri, Azərbaycan xalqının istiqlal mübarizəsinə layiqli töhfələr vermiş vətənpərvər şair və ictimai xadim, Dövlət Himninin sözlərinin müəllifi Əhməd Cavadın adına küçənin açılışı olub. Küçəyə Əhməd Cavadın adının verilməsi istedadlı şairin anadan olmasının 130 illiyi ilə bağlı Türkiyədə keçirilən tədbirlər çərçivəsində görkəmli şairin adının əbədiləşdirilməsi məqsədilə həyata keçirilib.**

Əhməd Cavad küçəsinin açılışından sonra Ankaranın Etimesgut rayonunda şairin şeirlər kitabının təqdimatı olub, həyatına və yaradıcılığına həsr olunan panel təşkil edilib. Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) və Azərbaycanın Türkiyədəki səfirliyinin birgə təşkil etdiyi tədbirdə rəsmi şəxslər, Türkiyə ictimaiyyətinin tanınmış simaları iştirak ediblər.





"Əhməd Cavad Anadoluda evsiz-eşiksiz qalmış adamlara köməklik göstərib. Eyni zamanda onu valideynlərini itirmiş uşaqların ermənilər və gürcülər tərəfindən zorla aparılmasına, uşaqların erməniləşməsinə, gürcüləşməsinə mane olan bir mücahid kimi də görürük"

Görkəmli şairin 130 illiyi ilə bağlı görülən işləri "Şərq"ə dəyərləndirən tarixçi-alim Boran Əzizli bildirib ki, Azərbaycan milli-azadlıq hərəkatına və dövlətçiliyin yaranmasına ideoloji cəhətdən dəstək verən, kömək edən, insanların qəlbində bu hisslərin yer etməsinə çalışan önəmli şəxslərdən biri də Əhməd Cavaddır. Tarixçi deyib ki, XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında romantik cərəyanın praktik cəhətdən qeyri-mümkün olduğunu deyən, realizm mövqeyində dayanan adamlar Əhməd Cavad, Abdulla Şaiq və digərlərini ittiham edirdilər: "Milli şairləri insanları reallıqdan uzaq düşüncələrə sövq etməkdə suçlayırdılar. Amma zaman Əhməd Cavadın doğruluğunu sübut etdi, onu haqlı çıxartdı. Birinci Dünya müharibəsində erməni-rus, gürcü və yunan quldur dəstələri Qars, Ərdahan, İğdır bölgəsində çoxlu sayda türk-müsəlmanları qətlə yetiriblər, kəndləri viran qoyublar. Azərbaycandan Osmanlıya gedən Müsəlman Xeyriyyə Cəmiyyətinin tərkibində Xosrov bəy Sultanovla bərabər Əhməd Cavad da olub. Əhməd Cavad Anadoluda evsiz-eşiksiz qalmış adamlara köməklik göstərib. Eyni zamanda onu valideynlərini itirmiş uşaqların ermənilər və gürcülər tərəfindən zorla aparılmasına, uşaqların erməniləşməsinə, gürcüləşməsinə mane olan bir mücahid kimi də görürük. Xüsusilə 1915-ci ildə yazdığı şeir bu cəhətdən çox ibrətamizdir. Əfsuslar olsun ki, Azərbaycan cəmiyyətinə lazım olduğu qədər təbliğ olunmayıb.

**Getdim gördüm dost elində**
**Nə bir səs var, nə bir layla.**
**Sordum qərib minarədən:**
**"Axşam olmuş, əzan hanı?**
**Bayquş qonmuş minbərlərə,**
**Deyən hanı, duyan hanı?".**

B.Əziz qeyd edib ki, Əhməd Cavad Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra da öz mübarizəsini davam etdirib: "O, başqaları kimi mükafat, ya da ruslardan "molodes" almaq naminə rejimin nökəri, qulbeçəsi olmayıb. Əhməd Cavad və əqidə yoldaşları həyatları bahasına, övladlarının sıxıntı çəkməsinə rəğmən, haqq mübarizəsi aparıblar. Heç vaxt ləyaqətsizlik, şərəfsizlik, ikiüzlülük etməyiblər, işğalçı rejimə yaltaqlanmayıblar. O baxımdan Əhməd Cavadın 130 illiyinin keçirilməsi çox doğru qərar idi. Ümid edirik, Bakıda və digər şəhərlərdə yubiley çərçivəsində Əhməd Cavad adına layiq mühüm tədbirlər, elmi konfranslar keçiriləcək. Xatirəsini əbədiləşdirmək üçün heykəllər, abidələr ucaldılacaq. Dərsliklərimizdə də Əhməd Cavad kimi şairlərə, onun şeirlərinə üstünlük verilməlidir. Sovet ədəbiyyatımızda elə şairlər var ki, kosmosda "ham-ham" deyən Laykanı özünə "qardaş" hesab ediblər. Milli-mənəvi dəyərlərimizi lağa qoyublar. Komsomola, partiyaya mədhiyyələr yazıblar. Əhməd Cavad isə heç zaman milli mövqeyindən dönməmişdi. Məhz ona görə digər şairlərdən daha çox təbliğ olunmalıdır".

**İsmayıl Qocayev**

# Biz də dünyanın bir parçasıyıq

## Qlobal ərzaq böhranı qapımızın astanasındadır

**İspaniya hökuməti qida məhsullarını zibil kimi atan restoran və mağazaların cərimələnməsini nəzərdə tutan qanun layihəsini dəstəkləyəcək. Bu barədə "El Pais" qəzeti xəbər verib. İspaniyanın iaşə obyektləri və mağazaları hər il təxminən 1,3 milyard kiloqram, yəni adambaşına orta hesabla təxminən 31 kiloqram ərzaq məhsulunu zibilliyə atır.**




***Azərbaycan da bir sıra ölkələr kimi qənaət rejiminə keçməli, israfçılığın qarşısını almalıdır***

Bu tendensiya ilə mübarizə aparmağa çalışan Krallığın Nazirlər Kabineti ərzaq itkilərinin qarşısının alınması ilə bağlı qanun layihəsini təsdiqləmək istəyir. Təşəbbüs qida zəncirinin bütün iştirakçılarından israfçılığın qarşısını almaq üçün plan hazırlamağı tələb edir. Qaydalara əməl etməyən barlar, restoranlar və mağazalar cərimələnə bilər. Plana əsasən artıq qalan ərzaq qida banklarına verilə bilər. Müəssisələr həmin təşkilatlarla məhsulların toplanması, saxlanması və daşınması şərtlərini müəyyən edən müqavilələr imzalamalıdır. Həmçinin artıq qalan meyvələrdən şirə və ya mürəbbə hazırlamaq mümkündür. Digər seçim isə ərzaq qalıqlarını heyvan yemi üçün istifadə etməkdir. Bundan başqa, restoranlar müştərilərə artıq qalan qidanı özləri ilə aparmağı təklif etməli, mağazalar isə yararlılıq müddəti bitən ərzaqların ucuz qiymətlərlə satışını stimullaşdırmalıdır. Qanun layihəsi təsdiqlənərsə, qaydalara əməl etməyən müəssisələr 2 mindən 60 min avroyadək, israfçılığa təkrar yol verdikləri halda isə 500 min avroya qədər cərimə ödəməli olacaq.

İspaniya hökumətinin belə bir qanun qəbul etməsinə, şübhəsiz, gözlənilən qlobal ərzaq böhranı barədə proqnozlar səbəb olub. Qlobal iqlim dəyişikliklərinin qlobal iqtisadi böhrana və bunun məntiqi davamı olaraq ərzaq böhranına səbəb olacağı ehtimalları yüksəkdir. Dünyada artıq neçə ildir ki, ərzaq qıtlığı yaşayan, əhalisi aclıq həddində olan ölkələr var. Qlobal iqlim dəyişiklikləri taxıl istehsalını azaldır, su böhranına gətirib çıxarır, təbii qidalar sürətlə sıradan çıxaraq yerini süni qidalara təhvil verir. Qarşıdakı təhlükəni nəzərə alan dünya dövlətləri ərzaq böhranının qarşısının alınması üçün müxtəlif vasitələr üzərində düşünürlər. Məsələn, uzun illərdir qardaş Türkiyə televiziyalarında yayımlanan mətbəx verilişləri, yemək hazırlığı yarışmalarında artıq qalan qidaların sahibsiz heyvan sığınacaqlarına təhvil verildiyi bildirilirdi. Qardaş ölkənin bəzi bölgələrində heyvandarlıqla məşğul olan fermerlər malqaranın yemlənməsində qida tullantılarından, artıq qalan qidalardan istifadə edirlər. Fermerlər kafe və restoranlarla əməkdaşlıq edir, qida artıqlarını əldə edərək malqaranı bunlarla yemləyirlər. Həm ərzaq israf edilmir, həm də ucuz əldə edilən qida - yem fermerə sərf edir. Ölkəmizdə belə bir təcrübənin nə dərəcədə formalaşdığına dair məlumatlar yoxdur. Bizdə hələ də zibil qutularına hər gün çörək atılır. Hətta böyük zibil yeşiklərinin yanında, ayrıca kiçik yeşik də qoyulur və üzərinə "çörək üçün", xəbərdarlığı yazılır. Deməli ki, bu ölkədə çörəyin zibilliyə atılacağı labüd hesab edilir, ona görə də guya ki, çörək ümumi zibilliyə atılmasın deyə, onun üçün xüsusi yeşik təşkil edirlər. Bu, xalqımızın çörəyə "hörmətidir"! Kafe və restoranlarımız müştəri masasından geri qayıdan qida artıqlarını nə edir, bu da tam aydın deyil. Bəziləri əməkdaşlarına qida artıqlarına sahib çıxmağa icazə verir. Amma elə kafe-restoranlar, şadlıq sarayları var ki, işçilərinə nəinki masadan geri qayıtmış bişmiş əti, digər xörəkləri, heç 1 parça çörəyi, 1 qaşıq "Paytaxt", "Mimoza" salatını da rəva görmür. İşlənmiş qidanı soyuducuya yığıb ertəsi gün başqa müştərilərin önünə çıxarır, masaya düzür. Bəlkə bunu "təkrar emal" hesab edirlər, amma elə deyil. Bu, müştərini ələ salmaqdır, pulu ödənmiş qidadan ikinci, hətta üçüncü dəfə gəlir əldə etməkdir. Müştərini aldatmaqla haram qazanc əldə etməkdir.

Qıtlıq, ərzaq böhranı qaçılmazdırsa, bunun qarşısının alınmasında hansı üsullardan istifadə etmək daha effektli olacaq?

**Millət vəkili, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, iqtisadçı Vüqar Bayramov "Şərq"ə açıqlamasında qeyd etdi ki, qlobal ərzaq böhranı ərzaq israfçılığının minimuma endirilməsi zərurəti yaradır:**

- Məlumdur ki, ümumiyyətlə, dünya üzrə hər il kifayət qədər böyük həcmdə ərzaq israf olunur. Afrikanın bir sıra ölkələrində əhali aclıqdan əziyyət çəkdiyi, körpələr tələf olduğu, ağır xəstəliklərə yoluxduğu bir vaxtda hansısa ölkələrdə tonlarla ərzaq tullanır. Qlobal ərzaq böhranı göstərir ki, ərzaq israfının minimumlaşdırılması, ərzaq israfının qarşısının alınması vacibdir. Hazırda, xüsusilə inkişaf etmiş ölkələrdə yanaşma ondan ibarətdir ki, ərzaq israfının qarşısının alınması və itkilərin minimumlaşdırılması üçün müxtəlif vasitələrdən istifadə edilsin. Müxtəlif vasitələr dedikdə, ehtiyacların düzgün hesablanması və ehtiyac olduğu qədər istehsal, ərzağın, həmçinin digər zəruri tələbat mallarının düzgün paylanması, məsələn, dövlət müəssisələri (uşaq, təhsil müəssisələri, sığınacaqlar, idarə və təşkilatlar, xəstəxanalar və sair), artıq qidanın ehtiyac duyulan ünvanlara çatdırılması, istifadə müddətinin bitməsinə az qalmış ərzağın ucuz qiymətə, endirimlə satışı, kafe və restoranlarda, şadlıq saraylarında israfçılığın, ərzağın tullanmasının qarşısının alınması, o cümlədən təkrar emaldır. Azərbaycanda da oxşar praktikalar tətbiq edilə bilər. Təkrar emalın həcmini artırmaq olar. Artıq qalan ərzaq, qidaların paylana biləcəyi konkret ünvanlar müəyyənləşməlidir. Bu, heyvan sığınacaqları da ola bilər. Ümumiyyətlə, hər bir insan ərzaq və digər tələbat mallarını ehtiyacı olduğu qədər almalıdır. Bölgələrdə qida israfına o qədər də çox rast gəlinmir, çünki təsərrüfatlarda qida tullantılarından istifadə edilir. Lakin şəhər və qəsəbələrdə, bilirik ki, vəziyyət fərqlidir. Qıtlıqla üzləşməmək üçün ilk növbədə israfçılığın qarşısı alınmalıdır. Bununla bağlı dövlət proqramının hazırlanmasına ehtiyac var. Bu, ərzaq təhlükəsizliyinin formalaşmasına töhfə verə bilər.

**Məlahət Rzayeva**

# Ermənistan Ukraynanın işğalında Rusiyaya dəstək olur

## Qərbdə bununla bağlı hər hansı reaksiya yoxdur

**"Rusiyanın "Sputnik" Agentliyinin Ermənistandakı redaksiyası İrəvandan Rostova 16 ton humanitar yardım göndərildiyini açıqlayıb. Vurğulanıb ki, bu yardım Ukraynada özəl əməliyyat aparan Rusiya hərbçiləri üçün nəzərdə tutulub".**



*Bu barədə millət vəkili Sahib Alıyev deyib. Deputat qeyd edib ki, Qərbdə bununla bağlı hər hansı reaksiya yoxdur:* "Görünür, Qərb susduğu üçün Ukrayna da görməzdən gəlir. Amma gəlməməlidir. Çünki bu "humanitar yardım" adlı yük 44 günlük savaş zamanı Rusiyadan Ermənistana göndərilənlərdən ola bilər. Ukraynada üzərində Ermənistanın bayrağı əks olunmuş zirehli texnika, onların ordusuna xas hərbi geyimdə olan döyüşçülərin videoları yayılır. Ermənistanın Ukrayna torpaqlarının zəbt edilməsində Rusiyaya dəstək olması 4 hərbi təyyarəni -"Su 30"ları göndərməsi faktı da təsdiqləyir. Qərb ölkələri Belarusun Ukraynadakı savaşda Rusiyanın yanında yer aldığını addımbaşı təkrarlasalar da, sanksiya tətbiq etsələr də, Ermənistan haqqında susmağa üstünlük verilir. Həm də bilə-bilə ki, bu gün Ukraynada baş verənlər işğalçı Ermənistandan geosiyasi alət kimi faydalananların bir zaman Azərbaycanda etdiklərinin təkrarıdır. Qəribədir ki, Ermənistandan "humanitar yardım" göndərilən gün Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi təmsilçisi Toyvo Klaar Avropa İttifaqının prezidenti Şarl Mişelin son Brüssel danışıqlarında dedikləri ilə uyuşmayan açıqlama verdi. Klaar "Qarabağ ermənilərinin rəyi nəzərə alınmadan hərtərəfli nizamlama mümkün deyil" söylədi. Cənab Klaar Ermənistan adlandırılan ölkədəki dədə-baba yurdlarında etnik təmizləməyə məruz qalan yüzminlərlə azərbaycanlını unudur. Ümumiyyətlə, Qərbdə bir işğalçıya qarşı sərt, total sanksiya tətbiq edib, digərinin başını sığallamaq təcrübəsinə nə vaxt son qoyulacaq? Nə zaman Azərbaycanın regionda sabitləşdirici rolu, Avropa ölkələrinin enerji təhlükəsizliyinin təminində atdığı addımlar, Ukraynada baş verənlərə yanaşmada tutduğu prinsipial mövqe obyektiv qiymətləndiriləcək?".

**İsmayıl**

# İran səhvlərini aradan qaldırmağa çalışır

## Parlamentlərarası münasibətlərin genişlənməsi müsbət haldır



**Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov Azərbaycanda səfərdə olan İran parlamentinin Milli təhlükəsizlik və xarici siyasət komissiyasının üzvləri ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən xəbərə görə, Ziyafət Əsgərov İranda qatar qəzasında həlak olanlara görə iranlı qonaqlara başsağlığı verib, ölənlərə Allahdan rəhmət, yaralılara şəfa diləyib. Ziyafət Əsgərov Azərbaycan və İran arasında mehriban qonşuluq və yaxın əməkdaşlıq münasibətlərindən söz açaraq, ortaq dini və mədəni dəyərlərin bizi birləşdirdiyini qeyd edib. Görüşdə nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsində birgə səylərin əhəmiyyəti vurğulanıb, regionda sülhün və iqtisadi inkişafın möhkəmlənməsinin vacibliyinə toxunulub, Azərbaycan və İran arasında bir çox sahələrdə, o cümlədən parlamentlər arasında əməkdaşlığın genişləndirilməsi, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi müzakirə olunub.

Politoloq Sədrəddin Soltan səfəri "Şərq"ə şərh edib. O bildirib ki, İran tərəfi 44 günlük müharibə dövründə və ondan əvvəlki müddətdə Azərbaycana qarşı çox pisliklər edib:

"Yəni Azərbaycan torpaqlarının işğal altında qalması üçün əlindən nə gəlibsə, onu edib. Bütün ictimaiyyətə bəllidir ki, işğal dövründə də İran tərəfi Rusiyanın vasitəsi ilə Ermənistana hər cür yardım edib. Hətta Azərbaycana qarşı çirkin təbliğat kampaniyasına da başlayıb. Müharibə bitdikdən sonrakı bir il müddətdə də İran xarici işlər naziri və müxtəlif rəsmiləri ölkəmizə qarşı təbliğat apardılar. Ötən ilin avqustunda Azərbaycan tərəfi İranın bu addımına görə ona qarşı etiraz notası verdi. Azərbaycan Prezidenti İlham Əliyev onların bu bəd əməllərinə görə İranı tənqid etdi".

**Politoloq qeyd edib ki, 2021-ci ilin payızından başlayaraq, İranın Azərbaycana qarşı münasibətində yumşalma var:**

"Prezidentlərarası görüş, İran xarici işlər nazirinin Azərbaycana səfəri, İran-Türkmənistan-Azərbaycan arasında üçtərəfli müqavilə və s. kimi məsələlər rəsmi Tehran-Bakı münasibətlərinə müəyyən yaxınlaşma və yumşalma gətirdi. Eləcə də hesab edirəm ki, parlamentlərarası bu tip görüşlər də həmin xoşniyyətli addımlardan sayılır. Yəni İran tərəfi Azərbaycanla münasibətlərini normallaşdırmaq istəyir, əvvəllər buraxdığı səhvləri aradan qaldırmağa çalışır. Oxşar addımı İran tərəfi Ermənistana da edir. Bu yaxınlarda İran parlamentinin bir qrupu İrəvanda səfərdə idi. Burada qeyri-adi və təəccüblü heç nə yoxdur. Qonşu dövlətlər arasında bu tip hallar baş verə bilər. Təki xoşməramlı olsun. Ümid edək ki, cənub qonşumuz da xoşməramlı addım atır".

**Çimnaz Şahlar**

# Müdafiə Nazirliyi hərəkətə keçməlidir

## Sülhməramlıların Qarabağdan çıxarılması gündəmə gətirilməlidir



**Ermənistanın baş prokuroru Azərbaycan Respublikasının ərazisinə qanunsuz səfər edib. Qondarma qurumun "nümayəndəsi" ilə görüş keçirib. Azərbaycan XİN-i Ermənistan tərəfinin bu məsuliyyətsiz və təxribatçı addımına dərhal reaksiya verib. Nazirlikdən bildirilib ki, sözügedən addımlar bölgədə sülh və təhlükəsizliyin bərqərar olması istiqamətində göstərilən səylərə ciddi xələl gətirir.**

Hazırda iki ölkənin normallaşma prosesi üçün işlər aparılır. Təxribata əsasən demək mümkündür ki, erməni tərəfi səmimi davranış sərgiləmir. O cümlədən beynəlxalq vasitəçilərin səylərinə kölgə saldığını bir daha təsdiqləyir.

**Hadisəni "Şərq"ə dəyərləndirən siyasi elmlər doktoru, politoloq Cümşüd Nuriyevin qənaətincə, ermənilər həmişə danışıqlardan öncə təxribat törədirlər:** "Nə qədər ki, Sülh sazişi imzalanmayıb, sərhədlər müəyyənləşməyib ermənilər təxribatlardan əl çəkməyəcək. Bu işdə rusların da "əli" var.

Azərbaycanın güc strukturu Müdafiə Nazirliyidir. İl yarım ərzində sülhməramlı qüvvələrin nəzarəti altında həm Fransa, həm Ermənistan nümayəndələrinin, eləcə də, ölkəmizin əleyhinə olan insanların qanunsuz səfərləri Müdafiə Nazirliyi tərəfindən rəsmi Moskvaya bildirilməlidir. Onların "uçotu" da aparılmalıdır.

Azərbaycan XİN öz işini gördü. Müdafiə Nazirliyi rus sülhməramlıları ilə bağlı məsələni gündəmə gətirməlidir. Milli Məclisə, həmçinin Rusiya Müdafiə Nazirliyinə müraciət ünvanlamalıdır. Milli Məclisin müvafiq komitəsinin qərarı çıxmalıdır. Qərara görə də, rus sülhməramlıların çıxmasını nəinki 2025-ci ilə kimi, hətta 2023-cü ili də gözləyə bilmərik".

*Politoloqun fikrincə, istənilən vaxt Azərbaycan rus sülhməramlılarının Qarabağdan çıxmasını gündəmə gətirməlidir:* "Əks təqdirdə bizi ciddi qəbul etməyəcəklər. Rusiya Ukraynadakı bacarıqsızlığının əvəzini başqa yerdə çıxmaq istəyir. Azərbaycan ehtiyatlı davranmalıdır. Mediamız da məsələni diqqətdə saxlamalıdır və saxlayır. Növbə Müdafiə Nazirliyindədir.

Ermənistandakı revanşist qüvvələr, Baş Prokuror da belə addımlar atırsa, sülhməramlılar maneçilik törətirmirsə, arxasında Rusiya qüvvələrinin maraqları dayanır".

**Aygün Tahir**

# "Lavrov Ermənistana vəziyyəti izah edib"

## Asif Nərimanlı: "Kim Ermənistanı sülhə razı sala biləcəksə, biz həmin masada yer alacağıq"

**Ermənistanın paytaxtı İrəvanda Rusiya Xarici işlər naziri Sergey Lavrov və ermənistanlı həmkarı Ararat Mirzoyan arasında görüş olub. "Report" xəbər verir ki, bu barədə Ermənistan Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti məlumat yayıb.**



XİN başçıları Azərbaycan və Ermənistan arasında münasibətlərin nizamlanmasına dair mümkün sənədi müzakirə edib, Qarabağ məsələsi ilə bağlı fikir mübadiləsi aparıblar. Lavrovun Türkiyə səfərindən dərhal sonra İrəvana getməsi və Azərbaycan-Ermənistan münasibətlərini müzakirə etməsi ciddi marağa səbəb olub. Görüşü şərh edən siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə bildirib ki, rəsmi Moskva Qərbin aktivliyini azaltmaq üçün Cənubi Qafqazda Türkiyənin yolunu açıb:

"Ankarada razılaşma əldə edən S.Lavrov Ermənistana vəziyyəti izah etmək üçün gedib. Azərbaycan üçün məsələni kimin həll edəcəyi vacib deyil. Hər kim ki, Ermənistanı sülhə razı sala biləcəksə, biz həmin masada yer alacağıq. Rusiya və ABŞ anlayır ki , 44 günlük müharibədən sonra bölgədə əsas tərəf Türkiyədir.

Ukrayna müharibəsindən sonra Rusiya Avropa İttifaqının Cənubi Qafqazda gedən proseslərə müdaxiləsini istəmir. Rəsmi Moskva Brüsseldəki sərhəd razılaşmasını aradan çıxarmaq niyyətindədir. Rusiya Ermənistanı Brüssel razılaşmasına yox, onun masasında əldə edilən razılaşmalara əməl etməyə məcbur edir.

Bütün bu proseslər onu göstərir ki, "3+ 3 formatı" yenidən fəaliyyətə başlayacaq. Regionda Türkiyə və Rusiya masasının aktivləşəcəyi , 44 günlük müharibədən sonra gündəmdə olan məsələlərlə bağlı yeni addımlar atılacağı gözlənilir".

**Nihat Müzəffər**

# Sanksiya hədəsi...

## Tiflisin Moskvaya gedən yolu bağlanıb

**Avropa Parlamenti Gürcüstanın hakim "Gürcü Arzusu" Partiyasının təsisçisi, ölkənin keçmiş baş naziri Bidzina İvanişviliyə sanksiya tətbiq edə bilər. Qətnamə layihəsini parlamentin ən iri fraksiyası olan Avropa Xalq Partiyası hazırlayıb.**



***Bunu İvanişvili də, digər ruspərəst siyasətçilər də anlamalıdır***

Sənəddə qeyd olunub ki, Bidzina İvanişvili Gürcüstanın demokratik sistemini sarsıdır və bu səbəbdən ona fərdi sanksiyaların tətbiqi təklif edilir. Tiflis hökumətindən Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvilinin həbsdən azad edilməsi də tələb olunub. Qətnamə müəllifləri Gürcüstanda KİV azadlığı və jurnalistlərin təhlükəsizliyi məsələlərinə də toxunublar. Eyni zamanda ötən il iyulun 5-də LGBT əleyhdarlarının Tiflisdə törətdikləri iğtişaşlar zamanı media nümayəndələrinin xəsarət alması, müxalif "Mtavari arxi" telekanalının baş direktoru Nika Qvaramiyanın həbsi də xatırlanıb. Qətnamə layihəsi ilə bağlı debatlar iyunun 8-də keçiriləcək, qərarın qəbulu üzrə səsvermə isə iyunun 9-da olacaq.

Siyasi şərhçi Azər Rəşidoğlu "Şərq"ə deyib ki, Bidzina İvanişvili Rusiyanın adamı kimi tanınır. Ekspertin sözlərinə görə, sanksiya Tiflis hökumətinə bir növ xəbərdarlıqdır: "Qərb Tiflisə yanlış seçim etməməyi təklif edir. Əgər hakimiyyət Rusiyanın maraqlarına cavab verəcək addımlar atacaqsa, Qərb Gürcüstanda hakimiyyət dəyişikliyi barədə düşünməli olacaq. Qonşu ölkədə Mixail Saakaşvili hakimiyyətə qayıdırsa, Rusiya üçün ciddi problemlər ola bilər. Bu, son həddir. Hesab etmirəm ki, vəziyyət bu qədər ciddiləşə bilər. Lakin Tiflisin də Moskvaya gedən yolu bağlanıb. Bunu İvanişvili də, digər ruspərəst siyasətçilər də anlamalıdır".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi;**



# Məscidlərin fəaliyyəti nəzarətə götürülməlidir

## Bununla yanaşı cəmiyyətdə dini maarifləndirmə işləri gücləndirilməlidir

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi açıqlama yayaraq, ölkə ictimaiyyətinə çağırış edib. Komitə ilk olaraq bəyan edib ki, Azərbaycan beynəlxalq aləmdə ictimai-siyasi sabitlik şəraitində dini tolerantlığın və multikultural dəyərlərin inkişaf etdiyi, bütün dini konfessiyalara bərabər münasibətin göstərildiyi, dini etiqad azadlığının yüksək səviyyədə təmin olunduğu, dini-mədəni müxtəlifliyin qorunduğu dövlət kimi tanınır.**

Dünyanın nüfuzlu dövlət xadimləri, dini liderləri, elm və mədəniyyət nümayəndələri Azərbaycanın dövlət-din modelinin bir çox ölkələr üçün örnək olduğunu bildirirlər. Buna görə də qlobal səviyyədə dini həmrəyliyə, dinlərarası və mədəniyyətlərarası dialoq mövzusuna həsr olunmuş beynəlxalq tədbirlərin müxtəlif vaxtlarda Azərbaycanda keçirilməsi heç də təsadüfi deyil. Bütün bunlar Azərbaycanda dini münasibətlərin konstitusion normalara əsaslandığını, vicdan və dini etiqad azadlığının yüksək səviyyədə təmin olunduğunu bir daha əyani şəkildə göstərir. Vurğulanıb ki, ölkəmizdə ictimai-siyasi sabitlik daha da möhkəmlənib. Makroiqtisadi sabitlik və yüksək iqtisadi artım təmin edilib. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və məqsədyönlü siyasəti nəticəsində 44 günlük Vətən müharibəsində şanlı qələbənin əldə edilməsi regional və beynəlxalq səviyyədə ölkəmizin mövqeyini daha da möhkəmləndirib. Cəmiyyətin bütün sahələrində olduğu kimi, vicdan və dini etiqad azadlığının təmin edilməsində, dini-mədəni müxtəlifliyin qorunmasında ulu öndər Heydər Əliyevin milli ideologiya səviyyəsinə qaldırdığı azərbaycançılıq məfkurəsi mühüm rol oynayır. Prezidentin sərəncamları ilə tarixi-dini abidələr, ziyarətgahlar bərpa edilir, yeniləri tikilir. Dini qurumlara mütəmadi olaraq maliyyə yardımları ayrılır. O cümlədən milli-mənəvi və dini dəyərlərə verilən yüksək qiymətin göstəricisi olaraq hərtərəfli addımlar atılır. Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Qarabağa səfərləri zamanı ilk olaraq məscidi ziyarət etməsi, bərpa-quruculuq işlərinin məhz dini ibadətgahlardan başlaması, Qarabağa və Şərqi Zəngəzura səfər zamanı yeni dini ibadət yerlərinin təməlinin qoyulması ölkə rəhbərliyinin dini-mənəvi irsə göstərdiyi diqqətin parlaq ifadəsidir. Qeyd etmək istərdik ki, Azərbaycan yenidən müstəqilliyini qazananda respublikada cəmi 17 məscid fəaliyyət göstərirdisə, hazırda onların sayı 2253-dür. Bugünədək 992 dini qurum dövlət qeydiyyatına alınıb. Konfessional baxımdan onlardan 955-i islam, 37-si isə qeyri-islam təmayüllüdür. Habelə, respublikada 16 kilsə və 7 sinaqoq fəaliyyət göstərir. Amma görünən odur ki, Azərbaycanın uğurlarından və mövqelərinin daha da güclənməsindən narahat olan bəzi dairələr vətəndaşların dini inancından sui-istifadə etməklə məkrli, destruktiv əməllərə rəvac verirlər. Aydındır ki, bu tipli çirkin "əməllər" multikultural və tolerant dəyərlərə söykənən Azərbaycan cəmiyyəti tərəfindən birmənalı olaraq rədd edilir. Demokratiya, qanunun aliliyi, unitarlıq və dünyəvilik prinsiplərinə söykənən Azərbaycan Konstitusiyasının əsaslarına zidd olaraq siyasi idarəçiliyi və həyat tərzini "şəriət qaydaları" adı altında təbliğ edən, özündə bir neçə nəfəri birləşdirən "təşkilat" və yaxud dərnək səviyyəli qruplar əslində dini pərdə altında gizlənmiş, insanların inanc və dini hisslərini istismar edən pozucu elementlərdən başqa bir şey deyil. Əminliklə demək olar ki, bu cür elementlərin fitnəkar əməllərini xalqımız böyük ikrah hissi ilə qarşılayır və buna görə də onların çirkin niyyətləri beşiyindəcə iflasa məhkumdur. Bu cür qərəzli və qeyri-sağlam mövqe tutan şəxslərə "dini təhsil" verib "ruhani" kimi yetişdirən bəzi xarici dövlətlərin dini mərkəzləri və digər təşkilatları 30 il düşmən tapdağı altında qalan və donuz axuru kimi istifadə edilən məscidlərimizə görə bir dəfə də olsun erməni qəsbkarlarına etiraz etməyiblər. Lakin onlar bu gün öz "kadrlar"ı vasitəsilə məscidləri inşa və bərpa edən, islami dəyərləri daim uca tutan Azərbaycanda "İslamı müdafiə" adı altında pozucu fəaliyyətə əl atırlar. Sosial mediada dövlət qurumlarının əleyhinə şər və böhtan kampaniyasına rəvac verirlər. Sülh və barışa böyük önəm verən islam dəyərlərindən sui-istifadə edərək süni gərginlik yaratmağa səy göstərirlər. O baxımdan Dini Komitə hesab edir ki, Azərbaycana qarşı din pərdəsi altında ideoloji təxribatlar törətməyə cəhd göstərən pozucu təşkilatların təsiri altına düşmüş, ölkəmizdəki milli birliyi və həmrəyliyi pozmaq xülyası ilə yaşayan bu cür qruplar, onların havadarları çirkin niyyətlərindən əl çəkməlidirlər. Unutmamalıdırlar ki, Azərbaycanda dünyəvi və demokratik dəyərlərə sadiq, milli kimliyinə hörmətlə yanaşan sağlam cəmiyyət və gənclik var. Ölkəmizdə aparılan dövlət siyasətinin əsas qayəsini məhz Vətənin bütövlüyü, Azərbaycanın tərəqqisi, vətəndaşların sülh və əmin-amanlıq şəraitində yaşamasının təmin olunması təşkil edir.

**Millət vəkili Ceyhun Məmmədov "Şərq"ə açıqlamasında deyib ki, dövlət tərəfindən din sahəsində çox mühüm işlər görülür.** Deputat bildirib ki, qarşımızda önəmli vəzifələr var və onlardan biri də dini təhlükəsizliyin təmin edilməsi, təhdidlərin qarşısının alınmasıdır: "Azərbaycanda fəaliyyət göstərən dini qurumların, icmaların fəaliyyəti çox ciddi şəkildə təhlil olunmalı, araşdırılmalıdır. Xüsusən, radikal yönümlü fəaliyyət icra edən bütün dini icmalar qadağan olunmalıdır. Belə icmalara rəhbərlik edən şəxslər də ciddi təftiş edilməlidir. Xarici qüvvələrə işləyən və onları təbliğ edən şəxslərin fəaliyyətinə son verilməlidir. Eləcə də yeni din konsepsiyasının qəbul olunmasına ehtiyac var. Bununla yanaşı, cəmiyyətdə dini maarifləndirmə işləri gücləndirilməlidir. Məscidlərin fəaliyyəti də nəzarətə götürülməlidir. Bu da çox önəmli məqamdır. Eyni zamanda aidiyyəti qurumların fəaliyyəti artırılmalıdır. Dini Komitə və din xadimləri çalışmalıdırlar ki, bu sahədə maksimum diqqətli olsunlar".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# İslam dininə hücum Hindistana baha başa gələcək

## Modi bu ölkədə geniş vüsət alan antimüsəlman kampaniyalarını maliyyələşdirən şəxs olaraq da tanınır

**Hindistanın hakim radikal millətçi "Bxaratiya Canata" (BJP) partiyasının rəsmiləri tərəfindən islam dininə qarşı və Məhəmməd peyğəmbərlə bağlı təhqiramiz ifadələr işlədilib. Hakim partiyanın sözçüsü Naveen Kumar Jindalın "Twitter"də Məhəmməd peyğəmbəri təhqir edən paylaşımı böyük reaksiya alıb.**

Qətər və Küveyt Hindistan rəsmilərindən üzr istəməyi tələb edib. İran isə Hindistandakı səfirini geri çağırıb. Səudiyyə Ərəbistanında yerləşən Ümumdünya Müsəlman Liqası isə bu təhqirin cavabsız qalmayacağını bildirib. Əksər müsəlman ölkələrinin supermarketlərində Hindistanın düyü torbaları, ədviyyatlar və çili bibərləri olan rəflər polietilenlə örtülüb. Lövhələrdə isə ərəbcə "Hindistan mallarını yığışdırdıq" deyə yazılıb. Məsələ ilə bağlı Hindistanın ölkəmizdəki səfiri Bavitlung Vanlalvavna Xarici İşlər Nazirliyinə çağırılıb. Hindistanın hakim partiyasının rəsmiləri tərəfindən islam dininə qarşı və Məhəmməd peyğəmbər ilə bağlı təhqiramiz ifadələr işlədilməsinin qəbuledilməz olduğu bildirilib. Hindistan rəsmilərinin sərgilədiyi islamafob mövqeyin bütün dünya müsəlmanlarının hissiyatına toxunduğu qeyd edilib və Azərbaycanın bu davranışı qınadığı Hindistan səfirinin diqqətinə çatdırılıb.

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycanın bu məsələdə rəsmi Dehliyə reaksiya bildirməsi çox vacib idi.** Ekspert vurğulayıb ki, Azərbaycan dini dövlət olmasa da əhalisinin böyük əksəriyyəti bu dinə etiqad edir: "Bundan başqa ölkəmiz bütün dünyada dinlərin sülh, əmin-aman və harmoniya ilə yaşandığı ölkə olaraq tanınır. İslam əməkdaşlıq təşkilatının ən aktiv üzvü olaraq da ölkəmizin bu məsələdə reaksiya bildirməsi yerində və doğru addım idi. Ümumiyyətlə, Hindistanın radikal millətçi BJP partiyası və onun lideri Narendra Modi uzun müddətdir ki, islamafob və nasist siyasət yeridir. Narendra Modi 2014-cü ildə hakimiyyətə gəldikdən sonra ölkədə islamafobiya və müsəlmanlara qarşı hücumlar hər il artmağa başlayıb. Hindli millətçilərinin müsəlmanları ölümlə hədələyən and videolarının yayılması həm ölkə daxilində, həm də xaricdə dəfələrlə reaksiyalara səbəb olub. Düzdür, bu cür çıxışlar diskurs baxımından xristianlar, sinqxlər və buddistlər kimi icmalara ünvanlansa da praktiki olaraq müsəlmanları hədəf alır. Aydın məsələdir ki, Naveen Kumar Jindalında islam peyğəmbərinə, onun xanımına və ümumilikdə islam dininə qarşı sistematik təhqirlər etməsi səbəbsiz deyil. Jindalı BJP partiyası və onun lideri Narendra Modi dəstəkləyir. Jindal bundan öncə də müsəlmanlara qarşı repressiyada adı hallanmış konkret cinayət əməllərinə imza atmasına baxmayaraq hakim partiya tərəfindən işlədiyi cinayətlər gözardı edilmişdi. Narendra Modinin müsəlmanlara qarşı atdığı digər bir islamafob addım da vətəndaşlıq haqqında düzəlişdir. Belə ki, yeni düzəlişə əsasən Əfqanıstan, Pakistan və Banqladeşdən olan qeyri-müsəlman qaçqınlara Hindistan vətəndaşlığının verilməsi sadələşdirilib. Maraqlı məqam isə həmin insanlar müsəlmanların kompakt yaşadığı şimal vilayətlərinə müsəlmanların torpaqları yaşayış evləri hesabına yerləşdirilir. Hətta 2021-ci ildən bəri Hindistanda bu qanuna qarşı etirazlar davam edir".

**Analitik qeyd edib ki, Modinin antimüsəlman mövqeyi əslində o, baş nazir olmadan öncə də görünürdü. Hətta bu səbəbdən seçkilərdə onun qələbəsinə ən çox müsəlmanlar etiraz etmişdi:** "Modi hələ Qucarat bölgəsinin qubernatoru olduğu müddətdə çoxsaylı müsəlman qətlinə göz yumurdu. Müsəlmanlara qarşı ikili standart tətbiq edir, hətta bir çox qətldə adı hallanırdı. Modi Hindistanda geniş vüsət alan antimüsəlman kampaniyalarını maliyyələşdirən şəxs olaraq da tanınır. Təsadüfi deyil ki, Pakistan və Hindistan arasında son zamanlar artan gərginlik də məhz Modinin adı ilə bağlıdır. Belə ki, Kəşmirin xüsusi statusunun ləğv edilməsi iki ölkə arasında münasibətlərin yenidən gərginləşməsinə gətirib çıxardı.

Modi faktiki olaraq Hindistanda dini qarşıdurma yaratmağa çalışır. O bununla ölkədəki kəskin gəlir ədalətsizliyini iqtisadi geriləməni və uğursuz daxili siyasətini ört-basdır etməyə çalışır. Son 7-8 il ərzində Hindistan iqtisadiyyatında geriləmə müşahidə olunur. Bu geriləmə Modinin hakimiyyəti dövründə daha da artıb. Onun uğursuz daxili siyasəti xalqın da narazılığına səbəb olub. Bu səbəbdən Modi hakimiyyətini qorumaq və xalqın fikrini yayındırmaq üçün belə bir addım atdı.

Modiyə qədər ölkənin daxili siyasətinin ən əsas məsələsi məhz bu gərginliyi azaltmaq idi. Lakin Modinin hakimiyyətə gəlməsi müsəlman-hindli qarşıdurmasını daha da artırdı. Modi hökumətinin bu cür radikal və yanlış siyasəti Hindistan üçün təhlükəli bir addımdır. Hesab edirəm, onun son addımı baha başa gələcək".

**İsmayıl**

# Ölkə-ölkə gəzib taxıl toxumu axtarmaq mənasızdır

## Azərbaycanın öz iqliminə uyğun sortlar yetişdirilməlidir

**Azərbaycan Türkiyədən buğda, arpa və digər dənli bitkilər üzrə yüksək sortlu, quraqlığa davamlı toxum almaq istəyir. Türkiyənin Kənd Təsərrüfatı və Meşəçilik Nazirliyinə istinadən verilən məlumata görə, hazırda bu istiqamətdə alınacaq buğda toxumunun həcmi ilə bağlı Azərbaycanın özəl şirkəti ilə danışıqlar aparılır.**



***"Kənd təsərrüfatı oturuşmuş ölkələrdə qurumun başına müğənnini də rəhbər təyin etsələr, inkişafına zərrə qədər də olsa zərəri dəyməyəcək. Çünki yerlərdəki kadrlar öz işini bilir. Amma bizim ölkəmizdə kənd təsərrüfatı sahəsi yenidən qurulmalıdır"***

Türkiyədən alınan toxum sortları Azərbaycanda əkiləcək. Türkiyənin dənli bitki sortları daha məhsuldardır və daha quraqlığa davamlıdır. Əgər həmin sortlar Azərbaycan torpağına uyğunlaşsa, bu halda daha geniş ərazilərdə əkilməsi planlaşdırılır. Qeyd edək ki, Azərbaycan buğda toxumunu əsasən Rusiya və Qazaxıstandan alır.

**Kənd təsərrüfatı üzrə mütəxəssis Vahid Məhərrəmov isə "Şərq"ə açıqlamasında deyib ki, hər ölkə özünün toxum sortunu yetişdirməlidir. İstiyə, xəstəliklərə, zərərvericilərə və digər stres amillərə davamlı olan buğda sortları yetişdiyi torpağın iqlim şərtlərinə uyğun olmalıdır. Bu, bütün dünyanın qəbul etdiyi bir standartdır:** "Bizim ölkəmizdə 9 iqlim tipi var. Gərək axtaraq ki, hansı ölkələrin iqlim şərtləri Azərbaycanın iqlim tiplərinə uyğun gəlir, o ölkələrdən toxum alaq. Hələ oradan alınan toxumların bizim torpağa uyğunlaşacağı da sual altındadır. Ölkədə respublikanın torpaq, iqlim şəraitinə uyğun sortlar yetişdirilmirsə, bu sahə inkişaf edə bilməz. Düzdür, Türkiyə ilə Azərbaycanın iqlim şəraitində nisbətən uyğunluq var. Ümumiyyətlə, Azərbaycanla eyni coğrafi enlikdə yerləşən Pireney, Appenin, Kiçik Asiya yarımadalarında yerləşən İspaniya, İtaliya, Türkiyə dövlətlərinin iqlimi Azərbaycana oxşayır. Amma taxılçılıq spesifik sahə olduğundan mütləq yerli iqlimə uyğun buğda toxumları yetişdirilməlidir".

**Ekspertin sözlərinə görə, hazırda ölkədə yeni növ buğda sortlarının yetişdirilməsində ciddi problemlər var. Bu sahə tamamilə sıradan çıxarılıb. Bu istiqamətdə görülən cüzi işlər isə toxumçuluğun artmasına elə də təsir etmir, cəmi bir faiz təşkil edir:** "Səbəb isə peşəkar kadrların bu sahədən kənarlaşdırılmasıdır. Azərbaycanda bu sahəni bilən mütəxəssislərin sayı kifayət qədərdir. Onlara şərait yaratmaq lazımdır ki, yüksək sortlu buğda, arpa, vərəmi və digər dənli bitki toxumları yetişdirsinlər və bu sahəni inkişaf etdirsinlər. Türkiyədən pambıq toxumu alıb gətirdilər. Bəzi yerlərdə müəyyən nəticə əldə olunsa da, bəzi yerlərdəki fermerlər mayanın batmasından şikayətləndilər.

Ölkənin buğda tələbatını daxili istehsal hesabına 100 faiz təmin etmək istəyiriksə, öz toxumumuzu özümüz yetişdirməliyik. İsrail kimi "cırtdan" bir ölkə özünün yüksək keyfiyyətli taxıl sortlarını yetişdirə bilir, Azərbaycan isə ölkə-ölkə gəzib toxum alır. Halbuki, Azərbaycanın əkin sahələri İsrailin əkin sahələrindən 5 dəfə artıqdır".

V.Məhərrəmov deyib ki, Azərbaycanın özünün yüksək sortlu buğda toxumları indi də var. Hektarda 70 sentner məhsul verən toxumlarımız var: "Yuxarıda da qeyd etdiyim kimi peşəkar mütəxəssisləri cəlb etməklə bu sahəni daha da inkişaf etdirmək olar. Azərbaycanda taxılçılığın inkişafı üçün münbit şərait, yüksək sortlu toxum, toxumu yetişdirən savadlı kadr da var. Bizdə kənd təsərrüfatı sahəsinin geridə qalmasının yeganə səbəbi naşılar tərəfindən idarə olunmasıdır. Bu sahəyə məsul olan şəxslərin kadr siyasətindən anlayışı belə yoxdur.

Kənd təsərrüfatı oturuşmuş ölkələrdə qurumun başına müğənnini də rəhbər təyin etsələr, inkişafına zərrə qədər də olsa zərəri dəyməyəcək. Çünki yerlərdəki kadrlar öz işini bilir. Amma bizim ölkəmizdə kənd təsərrüfatı sahəsi yenidən qurulmalıdır. Bunun üçün də idarəçilik mütləq şəkildə aqronomların əlinə keçməlidir. Bu sahənin baş mütəxəssisi aqronom, köməkçiləri isə zootexnik və baytar həkimlərdir. İqtisadiyyat məzununun kənd təsərrüfatına nə aidiyyəti var? Nə hesablayacaq? Faktiki olaraq indiki reallıqda KTN-də nəyisə hesablamağa ehtiyac yoxdur. Bu sahənin özünün mütəxəssisləri var onsuz da. Bu gün nazirliyin rəhbər vəzifələrinə peşəkar aqronomların təyin olunmasına ciddi ehtiyac var. Bundan sonra bütün problemlər yavaş-yavaş öz həllini tapacaq. Ölkəmizin kifayət qədər həm maliyyə, həm əmək, həm su, həm də digər resursları var. Bu sahədə olan resurslardan istifadə etməklə Azərbaycanın xaricdən taxıl almasının həcmini azaltmaq tam mümkündür. Bütün istehsal vasitələri, demək olar ki, əldə olunub. Bu gün Azərbaycanın digər bölgələrinin də özünü taxılla tam təmin etməsi, idxaldan asılı olmaması üçün bütün resurslar var, sadəcə, göstərilən sahədə idarəetmənin düzgün qurulmaması bu prosesin gerçəkləşməsinə mane olur".

**Ekspertin sözlərinə görə, Cəlilabad və Şəki rayonları hazırda ölkə üzrə taxıl istehsalının 16-20 faizini təmin edir. Amma bu rayonlarda belə hazırda məhsuldarlıq aşağıdır:** "Hektarda 26 sentner məhsul yığılır. Bu isə o deməkdir ki, toxumun yüksək sortlu olması hər şey demək deyil. Ona görə də Türkiyədən yüksək sortlu, quraqlığa davamlı toxumların alınması Azərbaycanda taxılçılığın inkişaf edəcəyinə dəlalət etmir. Torpaqlarımızda deqredasiya prosesi çox sürətlə gedir və qarşısını da ala bilmirlər. İşinin peşəkarı olan adam bilir ki, toxum səpməzdən əvvəl torpaqdakı problemlər aradan qaldırılmalı, sonra isə əkin-səpin işləri həyata keçirilməlidir. Münbit olmayan torpaqda nə qədər yüksək sortlu toxum olur-olsun, yetişməyəcək".

**Şəymən**

# Bağçalarda körpələrin incidilməsi ciddi məsələdir

## Maaş azdır deyə aqressiyanı uşaqlardan çıxarmaq yolverilməzdir





### Bağçalarda işləyənlər yaxşı olardı ki, psixoloji testlərdən keçirilsin

**Bağçada azyaşlıya zorkılıq tətbiq olunub. Hadisə Şamaxı rayonunda baş verib. Rayonun ərazisində yerləşən 3 saylı bağçada aşpazın uşağın saçını çəkməsinin videosu sosial şəbəkələrdə yayılıb.**

Dağlıq Şirvan Regional Təhsil İdarəsi azyaşlıya zorakılıq göstərilməsi məsələsinə münasibət bildirib. İdarənin İctimaiyyətlə əlaqələr üzrə məsul şəxsi Anar Osmanov məsələ ilə bağlı APA-ya açıqlamasında deyib ki, hadisə iyunun 2-də baş verib: "Bağça rəhbərliyi məsələ ilə bağlı tədbir görüb. Aşpaz Sevinc Balkiyeva barəsində intizam tənbeh tədbiri görülüb. Hazırda isə Dağlıq Şirvan Regional Təhsil İdarəsi məsələ ilə bağlı araşdırma aparır. Araşdırma başa çatdıqdan sonra ətraflı məlumat veriləcək".

**QHT nümayəndəsi, Qadın və Uşaqların Təhsilinə Dəstək İctimai Birliyinin rəhbəri Sevinc Fədai "Şərq"ə bu kimi halların başvermə səbəblərindən danışıb. O bildirib ki, əsas səbəb məktəb və bağçaya işə götürülən şəxslərin psixoloji durumunun öyrənilməməsidir:**

"Bunu ciddiyə almırlar və önəmli parametr hesab etmirlər. Məncə, xüsusən də, bağçada işə götürülənlər kimlərinsə qohum və ya tanışları olur. Onlar da bu ixtisasla heç vaxt maraqlanmayıblar. Bu da səbəb ola bilər. Bəzən isə maaş azlığı belə hadisələrə səbəb kimi göstərilir. Bunun aqressiyasını uşaqdan da çıxa bilirlər. Amma bütün hallarda, insan yaxşı pedaqoq olanda onun işinə, uşaqlara münasibətinə heç bir amil təsir edə bilməz. Bu birbaşa insanın işini bilməməsindən irəli gəlir. Maaş azlığı və digər səbəblər xüsusilə uşaqlarla işləyən insanın davranışlarını, iş prinsiplərini pozmasına səbəb olmamalıdır".

**Sevinc Fədai onu da əlavə edib ki, hadisələrə laqeyd yanaşmaq olmaz:** "Uşaqların yetişməsi ilk öncə ailədən, ikinci dərəcədə bağçadan, daha sonra məktəbdən başlayır. Uşaqlar bağçada bu travmanı alırsa, onlarda çox böyük qorxular yaranır. Ona görə də bağçada işləyənlərin seçiminə çox xüsusi yanaşmaq lazımdır. Körpələrin psixologiyasını zədələmək olmaz. Yaxşı olardı ki, işə götürən zaman xüsusi testlərdən istifadə edilsin. Müəllimlərin bu işə nə dərəcədə uyğun olduğuna dair əllərində dəqiq nəticə olsun. Bu məsələdə həssas olmaq lazımdır, etinasız yanaşmaq olmaz".

**S.Fədainin sözlərinə görə, sadəcə cəza tədbirləri bu problemləri aradan qaldırmağa kömək etmir:** "Biz belə hallarla rastlaşanda adətən ictimai qınaq olur. Buna əsasən, həmin şəxsə müəyyən qanun çərçivəsində cəza verilir. Amma bu bir növ toplumun gözünü boyamaq, aqressiyasını azaltmaq xarakteri daşıyır. Dövlət olaraq, bu kimi məsələləri ciddiyə almalıyıq. Əl atacağımız üsul təkcə cəza olmamalıdır. Bu mənada real addımlar atmaq lazımdır. Maarifçilik işləri aparmaq olar, qanunvericilikdə bununla bağlı boşluqları aradan qaldırmaq lazımdır. Belə halların yaşanmaması üçün bir fəaliyyət planı hazırlamaq lazımdır".

**Çimnaz Şahlar**

**Bakı Şəhəri üzrə Təhsil İdarəsi Təlimə Dəstək Mərkəzi 2021-2022-ci tədris ilində 20 məktəbin İnkişaf Planını hazırlayıb. Bu barədə İdarədən məlumat verilib. İnkişaf Planı hazırlanan məktəblərin kollektivləri ilə görüşlər keçirilib.**



# 20 məktəbin İnkişaf Planı hazırlanıb

## Metodistlərin məktəblərdəki real vəziyyəti görüb, yerində təhlil etmələri müsbət addımdır

Görüşlərdə TDM-nin metodistləri məktəblərdəki real vəziyyətlə tanış olmaq üçün dərs müşahidələri aparıb, təlim-tərbiyə prosesinin inkişafına yaxından dəstək göstərmək məqsədilə məktəb kollektivi ilə müzakirələr təşkil ediblər. Qeyd edək ki, inkişaf planlarının hazırlanması növbəti mərhələlərdə digər məktəblərdə də davam etdiriləcək.

**Təhsil eksperti Elçin Əfəndi isə "Şərq"ə açıqlamasında deyib ki, metodistlərin məktəblərdəki real vəziyyəti görüb, yerində təhlil etmələri, dərsliklərlə bağlı aparılan monitorinqlər təhsilin keyfiyyət göstəricilərinə mühüm təsir edən əsas faktorlardandır:** "Bu cür görüşlərin müntəzəm olaraq keçirilməsi və bütün ümumi təhsil müəssisələrini əhatə etməsi kifayət qədər əhəmiyyətli bir haldır. TDM-nin metodistlərinin məktəblərdəki real vəziyyətlə tanış olmaq üçün dərs müşahidələri aparıb, təlim-tərbiyə prosesinin inkişafına yaxından dəstək olmaları mövcud sahələrdəki nöqsanların aradan qaldırılmasına mühüm töhfə verəcək. Aidiyyəti qurumlar tərəfindən ölkədə fəaliyyət göstərən 4440-dən yuxarı orta ümumtəhsil müəssisələrinin hər birində monitorinqlər aparmaq mümkün olmasa da, xüsusi layihələr vasitəsilə nəzarət mexanizminin qurulması yaxşı haldır".

**Şəymən**

# Zabit Səmədov Venesuela Prezidenti ilə görüşdü



**K1 ustası, aktyor Zabit Səmədov Venesuela Prezidenti Nikolas Maduro ilə bir araya gəlib.**

Axşam.az xəbər verir ki, idmançı birlikdə olan fotolarını instaqram səhifəsində yayımlayıb.

Z.Səmədov paylaşımına "Cənab Prezident, sizi görməyimə şad oldum" qısa şərhini yazıb.

*Qeyd edək ki, Z.Səmədov "Kuruluş Osman" serialında rol alır.*

# Şəhriyar və Oksana cütlüyü toyda göründü

**Xalq artisti Həmidə Ömərovanın oğlu Rəhimin toyuna bir çox məşhur qatılıb.**



Axşam.az xəbər verir ki, onlar arasında rəqqasə-aktrisa Oksana Rəsulova və aparıcı Şəhriyar Əbilov cütlüyü də yer alıb.

Cütlük obyektiv qarşısına keçərək fotolar çəkdiriblər.

*Qeyd edək ki, Şəhriyar və Oksananın Osman adlı bir oğul övladı var.*

# Xalq artisti həyat yoldaşına mahnı həsr etdi




**Xalq artisti Miri Yusif həyat yoldaşı Nərgizə mahnı həsr edib.**

Olay xəbər verir ki, sənətçi bu barədə özü yazıb. O bildirib ki, ötən gün təqdim etdiyi, sözləri və musiqisi Yap10 və Rijeyə "Sevirəm" mahnısını öz sevdiyi üçün oxuyub:

"Bu mahnı mənim yeni sevgi marşımdır. Necə ki, mən öz sevdiyim üçün oxuyuram, siz də sevdikləriniz üçün mənimlə birgə oxuyun və "dance" edin!".

*Qeyd edək ki, cütlüyün üç övladı var.*

# "Nərmin işi": Məhkəmədə mübahisə düşüb, hakim iki şahidi zaldan çıxarıb

**Tovuzun Dondar Quşçu kəndində 10 yaşlı Nərmin Quliyevanı qətlə yetirməkdə ittiham olunan İlkin Süleymanovun cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**



APA-nın xəbərinə görə, Gəncə Ağır Cinayətlər Məhkəməsində hakim Dadaş İmanovun sədrliyi ilə keçirilən iclasda Nərmin Quliyevanın əmisi Arif Quliyev yenidən ifadə verib.

O, əvvəlki prosesdə ifadə verən kənd sakini Ülfət Əliyevin ifadəsi əsasında məhkəməyə çağırılıb. Ülfət Əliyev məhkəmədə Nərminin meyiti tapılmamışdan iki-üç gün əvvəl Arif Quliyevin onlara gələrək gecə Nərminə aid paltar ya ayaqqabının onların qapısına atıla biləcəyini dediyini bildirib.

Bu ifadəyə görə Arif Quliyev məhkəmədə Ülfət Əliyevlə üzləşdirilib. O, prosesdə Ülfət Əliyevə elə bir söz demədiyini, onu niyə belə ifadə verməsinə təəccübləndiyini bildirib:

"Mən onlara yanvarda yox, noyabrda getmişəm. Onda uşağı hər yerdə axtarırdıq, onlara da uşağı axtarmağa getmişdim".

Ülfət Əliyev isə onun yalan danışdığını deyib: "Niyə yalan deyirsən? Ayıbdır. Ad gününə görə yanvarın 1 və 2-də mənim qonaqlarım vardı. Ona görə dəqiq yadımdadır ki, ayın ya 3-ü, ya da 4-ü idi. Yoldaşım gəldi ki, Arif səni çağırır, çıxdım, onda dedin..."

Arif Quliyev Ülfət Əliyevlə aralarında heç bir problem olmadığını, onu yalan danışmayan biri kimi tanıdığını deyib.

Daha sonra məhkəmədə ittiham olunan şəxslə təcridxanada eyni kamerada saxlanılmış Rəvan İsmayılov ifadə verib. Rəvan İsmayılov əvvəlki ifadəsində İlkin Süleymanovun yuxuda uşaq öldürdüyünü sayıqladığını deyib. Digər kamera yoldaşları isə ifadələrində İlkin Süleymanovun kamerada təqsirsiz olduğunu dediyini açıqlayıblar. Həbsdə olduğu üçün əvvəlki prosesdə onlayn qaydada ifadə verən Rəvan İsmayılov məhkəməyə gətirilib.

İlkin Süleymanovun vəkilləri şahidin təkrar ifadə verməsi barədə vəkillərin, prokurorun vəsatət vermədiyini, ona görə də onun məhkəməyə gətirilməsinin əsassız olduğunu bildiriblər.

Hakim isə prokurorun ötən məhkəmədə Rəvan İsmayılovun təkrar dindirilməsini istədiyini qeyd edib.

Rəvan İsmayılov ifadəsində bildirib ki, İlkin Süleymanovun təqsirsiz olması barədə digər kamera yoldaşlarına heç nə deməyib. O, İlkin Süleymanovun kamerada uşağı öldürdüyünü etiraf etdiyini bildirib.

Vaxtilə İlkin Süleymanovla eyni kamerada saxlanılan iki nəfər isə prosesdə Rəvan İsmayılovun yalan danışdığını deyib.

Hakim Dadaş İmanov onların zaldan çıxarılmasına göstəriş verib.

Proses iyunun 14-də davam etdiriləcək.

Xatırladaq ki, 2019-cu ilin noyabrın 19-dan itkin düşən Tovuz rayonunun Dondar Quşçu kənd sakini, 10 yaşlı Nərmin Quliyevanın qətlə yetirilərək yandırılan meyiti 2020-ci il yanvarın 6-da kənd ərazisində aşkar edilib.

Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluğun əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu tərəfindən cinayətin açılması istiqamətində həyata keçirilmiş təxirəsalınmaz istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində cinayəti törətməkdə şübhəli bilinən Dondar Quşçu kənd sakini, 1973-cü il təvəllüdlü Süleymanov İlkin İbrahim oğlu tutularaq istintaqa cəlb edilib.

İş üzrə çoxsaylı şahidlər dindirilib, məhkəmə-tibbi, məhkəmə-bioloji, məhkəmə-kimyəvi ekspertizaları təyin edilib və digər zəruri istintaq hərəkətləri aparılıb.

İlkin Süleymanova Cinayət Məcəlləsinin 120.2.4 (xüsusi amansızlıqla qəsdən adam öldürmə), 120.2.9 (təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı qəsdən öldürmə), 144.3 (adam oğurluğu) və başqa maddələr ilə təqsirli bilinərək barəsində cinayət işi açılıb.




# AMEA dələduzluq qurbanı olan alimlər barədə açıqlama verdi

**Bir qrup alimə Şuşaya səfər təşkil etmək adı altında dələduzluq edildiyi iddia olunur.**

Bununla bağlı Trend-ə AMEA-nın Mətbuat xidmətinin rəhbəri Azadə Balayeva bildirib ki, konfransı AMEA təşkil etməyib. Sadəcə, konfransı təşkil edənlər AMEA-da çalışan bəzi alimlərimizi dəvət ediblər.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən isə bildirilib ki, həmin faktla bağlı hazırda Yasamal Rayon Polis İdarəsində araşdırma aparılır, zərərçəkənlər idarəyə müraciət edə bilərlər.

*Qeyd edək ki, sosial şəbəkələrdə yayılan məlumatlara görə, Əlvan Cəfərov adlı bir nəfər - "İksad Azərbaycan" adlı qurumun baş koordinatoru Şuşada konfrans keçiriləcəyi vədi ilə qeydiyyatdan keçmiş 470 nəfəri, onların içərisində AMEA-nın alimləri də var, Şuşaya səfər adıyla aldadıb, onlardan müəyyən məbləğdə pul alıb. Deyilənə görə, 470 nəfərdən sadəcə 100-ü Şuşaya göndərilib.*

**Elan**

Rzayeva Sevda Sabir qızının adına Yeni Azərbaycan Partiyasının Yasamal Rayonu Təşkilatı tərəfindən verilmiş üzvlük vəsiqəsi № 2032-74 itdiyi üçün etibarsız sayılır.

**Bank Olmayan Kredit Təşkilatı "CASPİAN İNVEST" MMC**
**31 DEKABR 2021-Cİ İL TARİXİNƏ TAMAMLANAN İL ÜZRƏ**
**İCMAL MALİYYƏ HESABATLARI**
**(Azərbaycan manatı ilə)**

MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT
Qeydlər 2021 2020

Faiz gəlirləri 4 **46596.73** **38106.64**
Faiz xərcləri **4448.88** **883.40**
Faiz gəliri **42147.85** **37223.24**
Faiz hesablanan aktivlər üzrə ehtimal olunan zərərlər üçün ehtiyyatın yaradılması
Faiz hesablanan aktivlər üzrə ehtimal olunan zərərlər üçün ehtiyyatın bərpası
Xalis faiz gəliri **42147.85** **37223.24**

Haqq və komissiya gəlirləri 6 **32242.74** **5971**
Haqq və komissiya xərcləri 6 - -
Digər əməliyyat gəlirləri 6 **56.58**
299.86
Digər əməliyyat xərcləri
Xalis qeyri-faiz gəlirləri **74447.17** **6270.86**
Əməliyyat gəlirləri
Əməliyyat xərcləri 6 **(85622.97)** **(92572.50)**
Əməliyyat mənfəəti/(zərəri) **(11175.80** **(49078.40)**
Mənfəət vergisindən başqa gəlirdən çıxılan digər vergilər 11

Mənfəət vergisindən əvvəl mənfəət
Mənfəət vergisi
Xalis mənfəət/(zəzər) **(11175.80)** **(49078.40)**

**Bank Olmayan Kredit Təşkilatı "CASPİAN İNVEST" MMC**
**31 DEKABR 2021-Cİ İL TARİXİNƏ TAMAMLANAN İL ÜZRƏ**
**İCMAL MALİYYƏ HESABATLARI**
**(Azərbaycan manatı ilə)**

**BALANS**

**Aktivlər Qeyd 2021 2020**
Nagd pul və pul vəsaitlərinin ekvivalentləri 8 13695.06 170673.50
Müştərilərə verilmiş kreditlər və avanslar (ehtiyatlar çıxılmaqla)
5, 9, 461099.55 455591.55
Balansdankənar aktivlər üzrə mümkün zərərlərinin ödənilməsi üçün
məqsədli ehtiyatlar **10 0 0**
Əsas vəsaitlər və qeyri-maddi aktivlər 12 12049.66 12049.66
Büdcəyə artıq ödənilmiş vergilər 0 0
Təxirə salınmış vergi aktivləri 10391.6410391.64
Sair aktivlər 13 115923.63 86096.93
**Aktıvlərin cəmi 602767.90 634800.28**
**Öhdəliklər**
Maliyyə sektoru qarşısında öhdəliklər 121366.57 161822.59
Məqsədli maliyyələşmələr 19 0 0
Digər öhdəliklər 43633.6324046.97
**Öhdəliklərin cəmi 165000.20 185869.56**
**Kapital və ehtiyatlar**
Nizamnamə kapitalı 300000 300000
Əlavə kapital 626.48 626.48
Bölüşdürülməmiş mənfəət (262012.98) (212944.36)
Cari ilin mənfəəti (zərəri) (11175.80) (49078.40)
**Kapital və ehtiyatların cəmi 410330.00 410956.48**
**Öhdəliklər, Kapital və ehtiyatların cəmi 602767.90 634800.28**

**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**
**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Aynurə Pənahqızı, Günəş Mərd, Aygün Tahir**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev**

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
**SWIFT BIK AII-BAZ2X h/h**
**AZ17AIIB38070019441100466111**
**Kod 200112 M/H**
**AZ37NABZ01350100000000001944**
**VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1621**



## Dünyanın ən kiçik inəyi...

Sahibi Rekordlar Kitabından gələcək cavabı gözləyir

**”Ginnessin Dünya Rekordlar Kitabı”na daha bir namizəd var. Bu, boyu cəmi 58 santimetr olan inəkdir. Bu barədə ”NTV.com.tr” məlumat yayıb.**

Məlumatda bildirilir ki, kiçik inəyin Vətəni Pakistanın Karaçi şəhəridir. İnəyin adı ”Queen”dir. Sahibi onun dünyadakı inəklər arasında ən kiçik boylu olduğunu iddia edərək ”Ginnesin Rekordlar Kitabı”na müraciət edib. Sahibi ”Queen”in dünyada hazırda yaşayan inəklər arasında ən balaca boylu olduğunda israrlıdır. İnək bu günlərdə Karaçi şəhərində nümayiş olunub. Bəzəkli inəyin boyu dəqiq ölçülərək qeydə alınıb. Sahibi isə Rekordlar Kitabından gələcək cavabı gözləyir. Bundan əvvəl dünyada ən balaca boylu inək Banqladeşdəki ”Rina” adlı inək olub. Lakin o, tələf olduğundan ”ən balaca boylu inək” titulu sahibsizdir. Hazırda ”Queen” bu ada iddialıdır.

**Məlahət**

## Tayland marixuananın istehsalını qanuniləşdirib

Səhiyyə Nazirliyi 1 milyon çətənə tingi paylamağı planlaşdırır



**Tayland hökuməti marixuana istehsalını qanuniləşdirib. Bununla da o, Asiyada marixuananı yetişdirməyə icazə verən ilk ölkə olub.**

”Şərq” xarici mediaya istinadən xəbər verir ki, Tayland Səhiyyə Nazirliyi sabahdan etibarən 1 milyon çətənə tingi paylamağı planlaşdırır. Hökumət rəsmiləri marixuananı yalnız tibbi istifadə üçün təbliğ etdiyini bildirib. Marixuanadan ictimai yerlərdə istirahət məqsədilə istifadə edənləri 3 aya qədər həbs və 25.000 Tayland bahtı (780 dollar) məbləğində cərimə gözləyir.

**Səhiyyə naziri Anutin Charnvirakul açıqlamasında marixuandan necə istifadə etməyi bilməyin lazım olduğunu bildirib:**

”Əgər şüurumuz varsa, bu bitki qızıl kimi qiymətli bir şeydir və təbliğ edilməlidir. Hökumət xalqı nəzarətdə saxlamaq və cəzalandırmaq üçün qanundan istifadə etməkdənsə, bu məsələdə daha yaxşı ”maarifləndirməyə” üstünlük verir.

**Çimnaz Şahlar**

## Öküz azyaşlını öldürdü

Heyvan sahibi ilə birlikdə həbs olunub



**Öküzün 12 yaşlı uşağı öldürdüyü iddiası ilə hərəkətə keçən Cənubi Sudan polisi mal-qaranı sahibi ilə birlikdə həbs edib.**

**”Şərq” ”HaberGlobal”a istinadən xəbər verir ki, polis keçən həftə axşam saatlarında fermanın yaxınlığında gəzən öküzün azyaşlı oğlana hücum edib öldürdüyünü bildirib. Polis sözçüsü İlyas Mabor yerli mediaya açıqlamasında bildirib ki, öküz hazırda Rumbek Mərkəzi Dairəsində polis bölməsində saxlanılır.**

**Ştat qanunlarına görə, bir insanı öldürən istənilən ev heyvanı avtomatik olaraq zərərçəkənin ailəsinə kompensasiya kimi verilir. Buna görə də heyvan 3 illik cəzasını başa vurduqdan sonra qarşı tərəfin ailəsinə təhvil veriləcək.**

Çimnaz Şahlar

## Dünyanın ən böyük saunası

100 nəfər eyni anda çimə bilir





**Dünyanın ən böyük saunası Norveçin Bodo şəhərindədir.**

**Azərtac xarici saytlara istinadla xəbər verir ki, 100 nəfərin eyni anda çimə biləcəyi sauna Norveç dənizinin sahilində yerləşir.**

**Saunanın dizaynı çox sadədir - bu, xüsusi materialla örtülmüş üçbucaqlı taxta fermalardan ibarətdir. Buna görə də, ”Agora” saunasında ön hissə şəffaflaşdırılıb, skamyalar isə amfiteatr şəklində yerləşdirilib.**

**Beləliklə, hər kəs buradan eyni zamanda Norveç dənizi sahillərinin gözəl mənzərəsini seyr edə bilər.**

## Ayça gözəllik sirrini açıqlayıb



**Türkiyəli aktrisa Ayça Ayşin Turan gözəllik sirrini açıqlayıb. Türkiyə mətbuatı xəbər verir ki, aktrisa müsahibəsi zamanı üzünə mütəmadi qulluq etdiyini deyib: ”Makiyajımı təmizləmədən qətiyyən yatmıram. Müxtəlif maskalar və kremlərdən istifadə edirəm. Özümə qulluq etməyi çox sevirəm”.**

***Qeyd edək ki, aktrisa sonuncu dəfə ”Ada masalı” serialında rol alıb.***



# Oğluna yalvarmır...

Sürücülük vəsiqəsini yeniləyən 100 yaşlı qadın hara istəyir özü gedir





**İtaliyanın şimalındakı Vicenza əyalətinin sakini, 100 yaşlı Candida Uderzo sürücülük kursunda görmə testindən keçərək yeni sürücülük vəsiqəsi alıb. ”Şərq” ”NTV.com.tr”-yə istinadən xəbər verir ki, Candida gənc yaşlarından etibarən avtomobil sürdüyünü, indi də yaşının çox olmasına baxmayaraq sükan arxasında əyləşməyi sevdiyini deyib: ”Müstəqil olmağı sevirəm.**

Məni harasa aparsın deyə, oğluma yalvarmaq məcburiyyətində qalmıram, hara istəsəm, maşınımı sürüb özüm gedirəm”, söyləyən Candida İtaliyada bir əsrdən artıq sükan arxasında olan 3 qadından biridir. Candida sağlamlığı və avtomobil idarə etmək istəyi barədə İtaliyanın ”Corriera della Sera” qəzetinə müsahibə verib. ”Sürücülük vəsiqəsini yeniləmək məni xoşbəxt etdi. Özümü daha da müstəqil hiss etməyimə səbəb oldu. Oğluma məni gəzdirməsi üçün təzyiq etmək istəmirəm. Şanslıyam. 100 yaşındayam və sağlamam. Bu, mənim üçün də gözləmədiyim sürprizdir. Qətiyyən dərman içmirəm. Bəzən yuxu dərmanı qəbul edirəm. Ancaq bu qədər”, deyən Candida görmə qabiliyyətinin də çox yaxşı olduğunu, qəzetləri eynəksiz oxuduğunu söyləyib. Candida Uderzonun yeganə kədəri ömür-gün yoldaşını erkən itirməsidir. Lakin bu itkidən sonra Candida həyatdan zövq almaqla həyatda sağlam qala biləcəyini dərk edib və dostlarıyla yürüşlərə çıxmağa başlayıb. Təqaüdə çıxdıqdan sonra səyahət edən bir qrupa üzv olub və onlarla birlikdə günlərini maraqlı keçirməyə başlayıb. Hər bazar günü səhər saat 6-da oyanıb qrupdakı dostlarıyla qaçışa çıxıb, səyahətə gedib. İtaliya qanunlarına görə, avtomobil sahibləri 80 yaşdan sonra 2 ildən bir sürücülük vəsiqələrini yeniləməlidir. Bunun üçün testlərdən keçməli, fiziki sağlamlıqları, görmə qabiliyyətlərinin sürücülük üçün uyğun olduğu yoxlanmalıdır. 100 yaşlı Candida bütün testlər üzrə müsbət nəticə göstərib və yeni vəsiqəyə sahiblənib.

**Məlahət**



## Körpə ölümü cəzasız qalmadı

6 ildən sonra nəhayət 2 həkimə həbs cəzası kəsilib

**Nəfəs almaqda çətinlik çəkdiyindən xəstəxanaya yerləşdirilən və ağciyər çatışmazlığı diaqnozu qoyulan 6 aylıq körpənin ölümünə görə 2 həkimə 3 il 6 ay azadlıqdan məhrumetmə cəzası verilib. ”Şərq” ”NTV com.tr”-yə istinadən bildirir ki, hadisə 2015-ci ildə Türkiyənin İstanbul şəhərində yaşanıb.**

Miray adlı 6 aylıq körpə nəfəs almaqda çətinlik çəkdiyi üçün xəstəxanaya yerləşdirilib. Lakin xəstəxanada körpə vəfat edib. Körpələrinin ölümündə həkimləri günahlandıran valideynlər məhkəməyə müraciət ediblər. Məhkəmə istintaqı başlayıb və həkimlərin müalicədə səhvə yol verdikləri məlum olub. Körpənin anası Nurcan, atası Şahin Türkan xəstəxana həkimlərinə güvənərək körpələrini onlara etibar etdiklərini, lakin həkimlərin vəzifələrini icra edə bilmədiyini deyib. Vəfat etmiş körpənin anası müalicə həkimləri barədə ”biri savadsız, digəri səhlənkar, məsuliyyətsiz idi. Dərman müalicəsiylə körpəmiz vəfat etdi”, deyib.

Körpənin atası Ş.Türkan isə məhkəmə prosesinin 6 ildir davam etdiyini vurğulayaraq, nəhayət, günahkarlartın cəzalandırılmasını tələb edib. Təqsirkar qismində prosesdə iştirak edən Nurəddin Onur Kutlu isə iddiaları qəbul etməyərək müalicə müddətində assistent həkim olaraq çalışdığını, xəstəxanaya müntəzəm deyil, yalnız çağırıldığı zaman gəldiyini deyib. N.Kutlu körpənin ağır formada ürək çatışmazlığı, müəyyənləşməmiş metabolik xəstəliyi olduğunu söyləyib, körpənin ölümünə çox üzüldüyünü ifadə edib. Məhkəmə körpənin müalicəsində dərman preparatlarının dozadan artıq istifadə edildiyini, şahid ifadələrini, xəstəxananın ictimai olmasını, valideynlərə dəyən mənəvi ziyanı əsas alaraq ”səhlənkarlıqdan ölümə səbəbolma” maddəsiylə həkimlər N.Kutlu və Elvis Krajanın 3 il 6 ay azadlıqdan məhrum edilməsinə qərar verib.

**Məlahət**

## Xəstəliyinə görə karyerasını bitirən aktyorun son halı hamını üzdü



**Afaziya diaqnozu qoyulan aktyor Brüs Uillis xəstəliyi açıqlanandan iki ay sonra ilk dəfə görüntülənib.**

Axşam.az xəbər verir ki, 67 yaşlı aktyor ötən gün dostu Stiven İds ilə Los-Ancelesdə paparatsilərin obyektivinə tuş gəlib. Onlar birlikdə dondurma yeyiblər.

*Qeyd edək ki, Brüs xəstəliyi səbəbindən karyerasını bitirdiyini açıqlayıb.*

## Meymunçiçəyinin hədəfi 40 yaşa qədər kişilərdir

Epidemiya halını alarsa, əsas yoluxanlar gənclər olacaq



**COVID-19 daha çox yaşlı nəsil, xroniki xəstəliyi olanlar hədəfləmişdi. İtkilər də bu yaş qrupunda oldu. Meymunçiçəyində isə əksinə gənc qrup risk altındadır.**

Bakupost.az xəbər verir ki, bunu tibb elmləri doktoru Sergey Çudakov deyib.

Risk zonasında gənc insanlar, 40 yaşa qədər kişilərdir.

”SSRİ-də sonuncu dəfə çiçək peyvəndi olunan nəslin indi 42 yaşı var. Deməli, 50-60-70 yaşlı insanlarda immunitet var, onlar hətta peyvənd olunsalar da xəstəliyi canlı olaraq da keçiriblər.

Avropada xəstələnənlərin 80%-i gənc kişilərdir. Hələ yaşlı xəstə yoxdur. Ola bilər ki, sıfırıncı ilk xəstə də kişi olub. O, afrikalı turistlə kontaktda olub. Meymunçiçəyinə yoluxmaq üçün çox yaxın fiziki ünsiyyət lazımdır, bu üsul da cinsi yoldur. Daha çox cinsi əlaqədə olan kateqoriya da gənc kişilərdir.

Ona görə də meymunçiçəyi epidemiya halını alarsa, əsas yoluxanlar gənclər olacaq. Onların da xroniki xəstəliyi az olduğu üçün çoxsaylı ölüm riski gözləmirəm. Bu kovid kimi olmayacaq”, - deyə o, vurğulayıb.

## Çayı niyə qəndlə içirik?

Günümüzə gəlib çatan maraqlı rəvayət var



**Çay Azərbaycanda ən çox içilən içkidir. Bizim ölkəmizdə Vətəni çin olan çay 1912-ci ildə ilk dəfə Lənkəranda əkilməyə başlamış və xalqımızın vazkeçilməzinə çevrilib.**

Bu içki ilə bağlı müxtəlif ənənələr var. Bunlardan ən maraqlısı qəndi çaya batırıb içməkdir. Bu ənənənin tarixi 19-cu əsrə gedib çıxır. Danışılan rəvayətlərə görə, ingilis tacirləri İrana qənd gətirir, lakin axundun haqqını vermirlər. Axund da cümə namazı zamanı camaata deyir ki, ingilis qəndini yemək olmaz, çünki kafir malıdır. Onun bu sözlərindən sonra qənd alan olmur. Tacirlər məcbur qalıb axundun pulunu verirlər. Axund növbəti cümə namazından sonra insanlara deyir ki, qəndi çaya salıb qüsl etdikdən sonra yemək lazımdır. Belə etdikdə o, paklanacaq və haram hesab edilməyəcək”.

Sonralar bu adətin məğzi unudulsa da, ənənəyə çevrilərək günümüzə qədər gəlib çatıb.

**Nihat Müzəffər**